ISSN 1028-8546

Volume XXI, Number 03
Section: Az
October 2015

Azerbaijan Journal of Physics

Fizika



www.physics.gov.az

G.M. Abdullayev Institute of Physics
Azerbaijan National Academy of Sciences
Department of Physical, Mathematical and Technical Sciences

Published from 1995
Ministry of Press and Information
of Azerbaijan Republic,
Registration number 402, 16.04.1997

ISSN 1028-8546
vol. XXI, Number 03, 2015
Series: Az

Azerbaijan Journal of Physics

FIZIKA

G.M.Abdullayev Institute of Physics
Azerbaijan National Academy of Sciences
Department of Physical, Mathematical and Technical Sciences

HONORARY EDITORS

Arif PASHAYEV

EDITORS-IN-CHIEF

Nazim MAMEDOV Chingiz QAJAR

SENIOR EDITOR

Talat MEHDIYEV

INTERNATIONAL REVIEW BOARD

Ivan Scherbakov, Russia
Kerim Allahverdiyev, Azerbaijan
Mehmet Öndr Yetiş, Turkey
Gennadii Jablonskii, Buelorussia
Rafael Imamov, Russia
Vladimir Man'ko, Russia
Eldar Salayev, Azerbaijan
Dieter Hochheimer, USA
Victor L'vov, Israel
Vyacheslav Tuzlukov, South Korea
Majid Ebrahim-Zadeh, Spain
Firudin Hashimzadeh, Azerbaijan
Anatoly Boreysho, Russia
Mikhail Khalin, Russia
Hasan Bidadi, Tebriz, East Azerbaijan, Iran
Natiq Atakishiyev, Mexico
Maksud Aliyev, Azerbaijan
Arif Hashimov, Azerbaijan
Vali Huseynov, Azerbaijan
Javad Abdinov, Azerbaijan
Bagadur Tagiyev, Azerbaijan
Tayar Djafarov, Azerbaijan
Talat Mehdiyev, Azerbaijan
Emil Guseynov, Azerbaijan
Ayaz Baramov, Azerbaijan
Tofiq Mammadov, Azerbaijan
Salima Mehdiyeva, Azerbaijan
Shakir Nagiyev, Azerbaijan
Rauf Guseynov, Azerbaijan
Almuk Abbasov, Azerbaijan
Yusif Asadov, Azerbaijan

TECHNICAL EDITORIAL BOARD

Senior secretary Elmira Akhundova, Nazli Guseynova, Sakina Aliyeva,
Nigar Akhundova, Elshana Aleskerova

PUBLISHING OFFICE

131 H.Javid ave, AZ-1143, Baku
ANAS, G.M.Abdullayev Institute of Physics

Tel.: (99412) 439-51-63, 439-32-23
Fax: (99412) 447-04-56
E-mail: jophphysics@gmail.com
Internet: www.physics.gov.az

It is authorized for printing:

Published at "**SƏRQ-QƏRB**"
17 Ashug Alessger str., Baku
Typographer : Aziz Gulaliyev

Sent for printing on: __.__. 201_
Printing approved on: __.__. 201_
Physical binding:_____
Number of copies:_____200
Order:_____

ELEKTRİK BOŞALMASINDA BAŞ VERƏN ELEMENTAR PROSESLƏRİN DİNAMİK XASSƏLƏRİ VƏ TEZLİK XARAKTERİSTİKALARI

T.X. HÜSEYNOV
Bakı Dövlət Universiteti, Z. Xəlilov küç., 23, AZ-1148
htarlan@mail.ru

Boşalma cərəyanının çox kiçik modulyasiyası halında rekombinasiya rejimində uzununa elektrik sahəsinin intensivliyi, boşalma cərəyanının modullaşma dərinliyindən böyük olan qiymətlə modullaşır. Yüksəkenerjili səviyyələrdə həyəcanlaşmaların sayı elektrik sahəsindən eksponensial asılı olduğuna görə, elektrik sahəsinin bu cür rəqsləri həyəcanlaşmaların orta sayını yüksəldir və nəticədə boşalmanın effektiv şüalanması artır.

Helium boşalmasında metastabil atomların konsentrasiyasının rəqslərinin amplitudu, tezliyin 2600 Hs qiymətində maksimuma malik olur. Fazaya görə sürüşmə tezliyin həmin qiymətində işarəsini dəyişir. Boşalma cərəyanının modullaşması rejimində müsbət sütunun xətti nəzəriyyəsi əsasında amplitud-tezlik və faza-tezlik xarakteristikaları hesablanmışdır. Məlum olmuşdur ki, tezliyin $\nu_0 = (2\pi)^{-1}\sqrt{\tau_a^{-1}\left(\tau_m^{-1} + \alpha_m n_0\right)}$ qiymətində təmiz pilləli ionlaşma rejimində metastabil atomların konsentrasiyasının rəqslərinin amplitudu maksimuma malik olur və faza öz işarəsini dəyişir.

Açar sözlər: qaz boşalması, dinamik xassələr, birbaşa ionlaşma, pilləli ionlaşma, boşalmanın tezlik xarakteristikaları.
UOT: 533.95

GİRİŞ

Elektrik boşalmasında baş verən elementar proseslərin dinamik xassələrinin öyrənilməsi, boşalmanın verilmiş şəraitində boşalma cərəyanının dayanıqlılığı məsələsini, stasionar hallarının seçilməsini [1-5] və habelə boşalmanın effektiv şüalanması ilə əlaqədar olan bəzi məsələləri həll etməyə imkan verir. [6] işində, ilk dəfə olaraq, birbaşa ionlaşma şəraitində boşalmanın müsbət sütununu təsvir edən tənliklər sisteminə baxılmışdır. Həmin işdə, müsbət sütunun (MS) ambipolyar diffuziya rejimində boşalma aralığını qidalandıran sabit e.h.q.-nə, əlavə olaraq, periodik həyəcanlanma yaradan zəif siqnalla təsir etməklə, boşalmanın daxili parametrləri həyəcanlandırılmışdır. İşdə alınan nəticələr alçaq təzyiqli elektrik boşalmalarına tətbiq oluna bilər.

Qazın təzyiqi yüksəldikcə, boşalmada pilləli həyəcanlaşmaların və ionlaşmaların rolu artır. Pilləli proseslər əsasən aşağı energetik səviyyələrin dolması ilə, yəni metastabil səviyyələrlə müəyyən olunur. Metastabil səviyyələrin yaşama müddətləri nisbətən böyük olduğundan, kiçik tezliklərdə müsbət sütunun dinamik xassələrinin tədqiqi zamanı məlum olmuşdur ki, rəqslərin müxtəlif fazalarında birbaşa və pilləli ionlaşma proseslərinin nisbəti dəyişir. Bu halda, həyəcanlaşmanın dərəcəsindən, formasından və boşalmaya tətbiq edilən siqnalın tezliyindən asılı olaraq maraqlı effektlər yaranır.

Təzyiq yüksəldikcə, pilləli ionlaşmaların rolunun artması ilə yanaşı həcmi rekombinasiyanın rolu da artır. Ona görə də, həcmi rekombinasiya prosesini nəzərə almaqla pilləli ionlaşma rejimində boşalmanın dinamik xassələrinin öyrənilməsi, nəzəriyyənin tətbiq olunma hüdudlarını daha da genişləndirir. İonlaşma-rekombinasiya rejimində boşalmanın dinamik xassələrinin öyrənilməsi praktiki baxımdan böyük maraq kəsb edir. Son zamanlar işıqlandırma məqsədi üçün yüksək təzyiqli ion lampalarından geniş istifadə edilir. Bu lampalarda ionlaşma prosesi pilləli, yüklü zərrəciklərin yox olması isə həcmi rekombinasiya prosesləri nəticəsində baş verir. Alınan nəticələr yüksək təzyiqli bu cür lampaların effektiv işıqlanmasını yüksəldə və onların optimal iş rejiminin seçilməsində yardımçı ola bilər.

Təsirsiz qaz boşalmalarında MS müxtəlif boşalma şəraitində yüklü zərrəciklərin yaranmasında və həyəcanlaşmış səviyyələrin dolmasında əsas rolu pilləli həyəcanlaşma və ionlaşma prosesləri oynayır. Pilləli ionlaşma prosesləri əsasən aşağı səviyyələrdə həyəcanlaşmış, başqa sözlə, metastabil səviyyələrin dolması ilə müəyyən olunur. Metastabil səviyyələrin yaşama müddətləri digər səviyyələrə nisbətən böyük olduğundan, aşağı tezlik qiymətlərində və müxtəlif tezlik fazalarında birbaşa və pilləli ionlaşma proseslərinin nisbəti dəyişir, ona görə də metastabil atomların konsentrasiyasının dəyişməsinin öyrənilməsi məsələsi böyük əhəmiyyət kəsb edir.

Pilləli ionlaşma prosesini nəzərə almaqla, modullaşdırılmış boşalma cərəyanı halında MS-nun xətti nəzəriyyəsinə [8-10] işlərində baxılmışdır. Lakin metastabil atomlarının konsentrasiyasının dəyişməsinin etibarlı ölçmə metodunun olmaması nəzəriyyədə alınan nəticələrin təcrübədə yoxlanması problemini yaradır.

Bununla əlaqədar olaraq, təqdim olunan işdə spektral xəttlərin udulma mexanizminə görə metastabil atomların konsentrasiyasının zəif sinusiodal dəyişməsinin ölçmə metodu təklif edilir. Boşalma cərəyanının sinusiodal rəqslərinin modullaşması yolu ilə helium boşalmasında metastabil triplet səviyyələrində atomların konsentrasiyasının rəqslərinin amplitud və fazaları ölçülmüşdür və alınan təcrübi nəticələr nəzəri nəticələrlə müqayisə edilmişdir.

1. İONLAŞMA-REKOMBİNASİYA REJİMİNDƏ BOŞALMANIN DİNAMİK XASSƏLƏRİ

Müsbət sütun diffuziya rejimində olduqda, pilləli ionlaşma rejiminin nəzərə alınması halında [3, 6-8], boşalma parametrlərinin rəqsləri keyfiyyətcə başqa tezlik xarakteristikalarına malik olur. Xüsusi halda məlum olmuşdur ki, təmiz pilləli ionlaşma şəraitində, tezlikdən asılı olaraq, elektronların konsentrasiyasının n_e, uzununa elektrik sahəsi intensivliyinin E_z və metastabil səviyyələrin konsentrasiyasının N_m rəqslərinin amplitudu maksi-

muma malik ola bilər. Birbaşa ionlaşma rejimində isə bu kəmiyyətlər monoton dəyişir. Həmin kəmiyyətlərin maksimumuna uyğun olan tezliyin xarakterik qiyməti isə aşağıdakı ifadə ilə təyin olunur:

$$\nu_0 = \frac{1}{2\pi}\sqrt{\frac{1}{\tau_a}\left(\frac{1}{\tau_m} + \alpha_m n_e\right)} \qquad (1)$$

burada τ_a – ambipolyar diffuziya müddəti, τ_m – metastabil atomların divara doğru diffuziya müddəti, $\alpha_m n_e$ – metastabil atomların elektron zərbələri nəticəsində dağılma sürətidir.

Bu işdə rekombinasiya prosesini nəzərə almaqla elektronların və metastabil atomların balans tənliklər sisteminə və dövrənin tam cərəyan ifadəsinə əsasən müsbət sütunun xətti nəzəriyyəsinə baxılmışdır.

Sadəlik baxımından əsas, metastabil və ionlaşma səviyyələrindən ibarət olan atomun üç səviyyəli modelindən istifadə edilmişdir. Bu səviyyələr uyğun olaraq 0, m və i indeksləri ilə işarə edək.

Baxdığımız tənliklər sistemini aşağıdakı şəkildə yazmaq olar:

$$\frac{dn_e}{dt} = N_{m0}(t)\alpha_{mi} n_e(t) - \beta n_e^2(t); \qquad (2)$$

$$\frac{dN_m(t)}{dt} = N_0\alpha_{0m}(t)n_e(t) - \left[\alpha_m n_e(t) + \frac{1}{\tau_m}\right]N_m(t); \qquad (3)$$

$$J_b(t) = eg(R)b_e n_e(t)E(t). \qquad (4)$$

Burada J_b – boşalma cərəyanı, N_0 – normal atomların konsentrasiyası, α_{0m} – birbaşa həyəcanlaşma sürətinin sabiti, α_m və α_{mi} – metastabil səviyyənin elektron zərbəsi ilə dağılma və pilləli ionlaşma sürətlərinin sabitləri, β – həcmi rekombinasiya əmsalı, b_e – elektronların yürüklüyü, R – boşalma borusunun radiusu, $g(R)$ – konsentrasiyanın radial istiqamətdə paylanmasını xarakterizə edən faktordur.

Boşalma cərəyanının $J_b(t)$ periodik modullaşma halına baxaq:

$$J_b(t) = J_0 + J_1. \qquad (5)$$

Aydındır ki, modullaşma halında n_e(t), E(t) və N_m(t) kəmiyyətlərini aşağıdakı şəkildə yazmaq olar:

$$n_e(t) = n_0 + n_1 e^{i\omega t},\ E(t) = E_0 + E_1 e^{i\omega t},\ N_m(t) = N_{m0} + N_1 e^{i\omega t} \qquad (6)$$

Verilmiş halda modulyasiyanın dərinlik əmsalı kiçik olduqda:

$$J_1 \ll J_0,\ n_1 \ll n_0,\ E_1 \ll E_0,\ N_1 \ll N_{m0} \qquad (7)$$

şərtləri ödənməlidir.

(5) və (6) ifadələrini ((2)-(4)) tənliklər sistemində yazıb, (7) şərtlərini nəzərə alsaq, onda müsbət sütunun J_0, n_0, E_0 və N_{m0} kəmiyyətlərindən asılı olan stasionar nəzəriyyəsinin tənliklər sistemini alarıq:

$$N_{m0}\alpha_{mi} = \beta n_0; \qquad (8)$$

$$N_0\alpha_{0m}n_0 = \left(\alpha_m n_0 + \tau_m^{-1}\right)N_{m0}; \qquad (9)$$

$$J_0 = eg(R)b_e n_0 E_0. \qquad (10)$$

Bu tənliklərdən dəyişən kəmiyyətlərin kompleks amplitud qiymətləri üçün alırıq:

$$(i\omega + \beta n_0)n_1 - \alpha_{mi}n_0 N_{m1} = 0; \qquad (11)$$

$$\left(i\omega + \frac{N_0\alpha_{0m}n_0}{N_{m0}}\right)N_{m1} - \frac{N_{m0}n_1}{n_0\tau_m} + \frac{N_1 d\alpha_{0m}E_1}{dE} = 0; \qquad (12)$$

$$E_1 = \frac{J_1}{J_0}E_0 - \frac{n_1}{n_0}E_0. \qquad (13)$$

α_m, α_{mi}, τ_a, b_e, τ_m və β kəmiyyətlərinin elektrik sahəsindən zəif asılı olduğunu fərz etsək, onların törəmələrini nəzərə almamaq olar. Bu xassə müxtəlif qazlar və metal buxarlarında alınan elektrik boşalmalarında ödənilir, çünki elektronların enerjiyə görə paylanma funksiyası birinci həyəcanlaşma potensialının qiymətindən sonra kəskin enir. Bunun nəticəsində birbaşa həyəcanlaşma sürəti elektrik sahəsindən eksponensial asılı olur və bu reaksiyalarda paylanmanın yüksəkenerjili "quyruq" hissəsinin elektronları iştirak edir. Paylanma əyrisinə aid olan qalan çoxlu sayda elektronlarla (nisbətən kiçik enerjili) bağlı olan proseslər elektrik sahəsindən zəif asılı olur və ona görə də sonuncu asılılıqları nəzərə almamaq olar. Odur ki, ((11)-(13)) tənliklər sisteminin n_1, E_1 və N_1 kəmiyyətlərinə görə həlli:

$$n_1 = A_n \cos\left(\omega^2 + \varphi_n\right) \qquad (14)$$

şəklində olur. Burada

$$tg\varphi_n = Q\omega\left(\omega^2 - \omega_0^2\right)^{-1}; \qquad (15)$$

və

$$A_n = \frac{J_1}{J_0}n_0 - \frac{p^2}{\sqrt{\left(\omega^2 - \omega_0^2\right) + Q\omega^2}} \qquad (16)$$

Bu ifadələrdə aşağıdakı işarəmələr qəbul edilmişdir:

$$\omega_0^2 = \frac{N_0E_0n_0\alpha_{mi}d\alpha_{0m}}{dE} + \frac{N_0n_0^2\beta\alpha_{0m}}{N_{m0}} - \frac{N_{m0}\alpha_{mi}}{\tau_m} \qquad (17)$$

$$p^2 = N_0\left(\frac{d\alpha_{0m}}{dE}\right)E_0n_0\alpha_{mi}; \qquad (18)$$

$$Q = N_0 \alpha_{0m} n_0 N_{m0}^{-1} + \beta n_0 . \qquad (19)$$

α_{om}, α_{mi}, τ_a, τ_m və β kəmiyyətlərinin xüsusiyyətləri-ni və N_0, N_m və n_e-nin xarakterik qiymətlərini nəzərə aldıqda, (15) və (16) ifadələrinə əsasən alınan nəticələrin analizi göstərir ki, elektronların konsentrasiyası rəqslərinin cərəyanın rəqslərinə nisbətən faza sürüşməsi (φ_n), π ilə A_n qiymətləri arasında dəyişir və tezliyin ω_0 qiymətində maksimuma malik olur. A_n-nin (şəkil 1a, 1-ci əyri) və φ_n-nin (şəkil 1a, 2-ci əyri) ω-dan asılılığı şəkil 1 a-da verilmişdir.

Konsentrasiyanın dəyişməsinə uyğun olaraq E_1 sahəsinin rəqsləri də harmonik qanunla dəyişir:

$$E_1 = A_E \cos(\omega t + \varphi_E), \qquad (20)$$

Bu ifadədə

$$A_E = \frac{J_1 E_0}{J_0} \sqrt{\left[1 - \frac{p^2(\omega^2 - \omega_0^2)}{(\omega^2 - \omega_0^2)^2 + Q^2\omega^2}\right]^2 + \frac{p^2 Q^2 \omega^2}{\left[(\omega^2 - \omega_0^2)^2 + Q^2\omega^2\right]^2}} \qquad (21)$$

və

$$\varphi_z = -\frac{p^2 Q \omega}{\omega_0^2 R^2 + (Q^2 - p^2 - 2\omega_0^2)\omega^2 + \omega^4}, \qquad (22)$$

burada

$$R = 2n_0\alpha_{mi} - \frac{N_{m0}\alpha_{mi}}{\tau_m} + \frac{N_0 n_0^2 \beta \alpha_{0m}}{N_{m0}} . \qquad (23)$$

A_E-nin (şəkil 1c, 1-cı əyri) və φ_E-nin (şəkil 1c, 2-ci əyri) ω-dan asılılığı şəkil 1 c-də verilmişdir. Həmin şəkildə ambipolyar diffuziya rejimində müsbət sütunun analoji parametrlərinin tezlikdən asılılıqları da göstərilmişdir (Şəkil 1 c-də 3 və 4 əyriləri) [5]. Bu nəticələrin müqayisəsindən görünür ki, kiçik tezliklərdə, rekombinasiya rejimində elektrik sahəsinin rəqsləri boşalma cərəyanının rəqslərinə nisbətən təqribən iki dəfə böyükdür.



Şəkil 1. Elektrik boşalmasının amplitud-tezlik və faza-tezlik xarakteristikaları: a) elektronların konsentrasiyasının, b) metastabil atomların və c) uzununa elektrik sahəsinin.

Metastabil atomların konsentrasiyasının rəqslərini isə aşağıdakı ifadə ilə verə bilərik:

$$N_1 = A_N \cos(\omega t + \varphi_N), \tag{24}$$

Burada

$$A_N = \frac{J_1 n_0}{J_0} \frac{P^2}{n_0 \alpha_{mi}} \frac{\sqrt{\left[\beta n_0 \left(\omega^2 - \omega_0^2\right) - Q\omega^2\right]^2 + \omega^2 \left(Q\beta n_0 + \omega^2 - \omega_0^2\right)^2}}{\left(\omega^2 - \omega_0^2\right)^2 - \omega^2 Q} \tag{25}$$

və

$$\mathrm{tg}\varphi_N = \frac{\omega\left(\beta n_0 Q + \omega^2 - \omega_0^2\right)}{\beta n_0 \left(\omega^2 - \omega_0^2\right) - \omega^2 Q}. \tag{26}$$

A_N-nin (şəkil 1b, 1-cı əyri) və φ_N-nin (şəkil 1b, 2-ci əyri) ω-dan asılılığı şəkil 1 b-də verilmişdir.

Təcrübədən və hesablamalardan alınan nəticələrin müqayisəsindən göründüyü kimi, boşalma cərəyanının çox kiçik modulyasiyası halında rekombinasiya rejimində uzununa elektrik sahəsinin intensivliyi boşalma cərəyanının modullaşma dərinliyindən böyük olan qiymətlə modullaşır. Yüksəkenerjili səviyyələrdə həyəcanlaşmaların sayı elektrik sahəsindən eksponensial asılı olduğuna görə, elektrik sahəsinin bu cür rəqsləri həyəcanlaşmaların orta sayını yüksəldir və nəticədə boşalmanın effektiv şüalanması artır. Qeyd edək ki, bu cür güclənmə effekti müsbət sütunun diffuziya rejimində də baş verir və bu halda tezliyin $\nu_0 = (2\pi)^{-1}\sqrt{\tau_a^{-1}\left(\tau_m^{-1} + \alpha_m n_0\right)}$ qiymətində boşalmanın pilləli ionlaşma şəraiti və $\nu_0 = (2\pi\tau_a)^{-1}$ qiymətində isə birbaşa ionlaşma şəraiti yaranır.

2. HELİUM BOŞALMASI MÜSBƏT SÜTUNUNDA METASTABİL ATOMLARIN KONSENTRASİYASININ RƏQSLƏRİ

Stasionar boşalmada səviyyələrin dolma mexanizminin öyrənilməsi göstərdi ki, triplet metastabil səviyyələrin yaranma sürəti qalan ikikvantlı səviyyələrin yaranma sürətlərinin cəmlərindən 6 dəfə böyükdür. Ona görə də, pilləli ionlaşma sürətlərini hesablayarkən, ikikvantlı səviyyələrin yaranma sürətlərini nəzərə almamaq olar. Odur ki, biz hesablamalarda ancaq 2^0S_1 səviyyələrindən pilləli ionlaşmaları nəzərə almışıq. Cədvəldə boşalma şəraitindən asılı olaraq stasionar plazmanın ölçülmüş və hesablanmış bəzi parametrləri verilmişdir. Cədvəldə E_z – uzununa elektrik sahəsinin intensivliyi, n_e və N_0 – elektronların və normal atomların konsentrasiyası, N_m – 2^0S_1 səviyyəsinə uyğun metastabil atomların konsentrasiyası, α_{0i}, α_{mi} – birbaşa və pilləli ionlaşma reaksiyalarının sürətlərinin sabitləri, τ_a – ambipolyar diffuziya müddəti, τ_m^{-1} və α_m – divara diffuziya və elektron zərbəsi ilə metastabil atomların dağılma sürətlərinin sabitləridir.

Hesablamalarda zond cərəyanının ikinci tərtib törəməsinin elektronların enerjiyə görə paylanma funksiyası ilə düz mütənasib olmasına əsaslanan ölçmə üsulundan istifadə edilmişdir. Cədvəldən görünür ki, yüklü zərrəciklərin yaranmasında əsas rolu pilləli ionlaşma prosesi oynayır.

Cədvəl

Parametrlər	Qiymətlər
E, V/sm	3,2
n_e, sm^{-3}	$1{,}1\cdot10^{10}$
N_m, sm^{-3}	$5{,}9\cdot10^{11}$
$\alpha_{0i}N_0$, c^{-1}	$2{,}9\cdot10^{4}$
$\alpha_{mi}N_m$, c^{-1}	6,1·104
$\alpha_m n_e$, c^{-1}	$2{,}7\cdot10^{3}$
τ_a^{-1}, c^{-1}	$1{,}6\cdot10^{5}$
τ_m^{-1}, c^{-1}	$2{,}4\cdot10^{3}$

Metastabil səviyyələrin dolma mexanizmi spektral xətlərin udulma üsulu ilə öyrənilmişdir. Bu halda həyəcanlaşmış atomların radial paylanmasını nəzərə almadan, boşalma borusunun eninə və uzununa istiqamətində ölçmələr aparılmışdır. Ölçmələri aparmaq üçün, Ω tezliyi ilə köməkçi boşalma borusunda cərəyan modullaşdırılmış və həmin borunun şüaları, ω tezliyi ilə modullaşmış ölçmə boşalma borusundan buraxılmışdır. Bu halda köməkçi boruda plazma və ölçmə borusundakı müsbət sütun uyğun olaraq $E + F sin\Omega t$ və $C + D sin\omega t$ qanunları əsasında modullaşdırılmışdır. Seçilmiş λ = 388,8 nm dalğa uzunluqlu spektri ölçmə borusundan keçdikdən sonra aşağıdakı triqonometrik tənliklə ifadə etmək olar:

$$\begin{aligned}&(E + F sin\Omega t)[1 - A - B sin(\omega t + \varphi)] = \\ &= E - AE - BE sin(\omega t + \varphi) + F sin\Omega t - \\ &- AF sin\Omega t - BF sin\Omega t sin(\omega t + \varphi)\end{aligned} \tag{27}$$

Burada A və B əmsalları udulmanı xarakterizə edir. Məlumdur ki, kiçik optik sıxlıqlarda tam udulma $æl$ hasilindən (başqa sözlə $N_j f_{ik}$ – dan) xətti asılı olur [11]. Ona görə də, deyə bilərik ki, tam udulma (27) ifadəsi $æl$ hasilindən xətti asılı olduqda ödənilir. Bu halda A əmsalı metastabil atomların konsentrasiyasının orta qiyməti ilə, B əmsalı isə həmin səviyyənin konsentrasiyasının rəqslərinin amplitudu ilə mütənasib olur. Beləliklə, N_m-in zaman xarakteristikalarını quraraq, A, B, φ kəmiyyətlərini təyin etmişik.

İndi isə (27) ifadəsində axırıncı toplananın şəklini dəyişək:

$$BF sin\Omega t sin(\omega t + \varphi) = \frac{1}{2} BF\{cos[(\Omega - \omega)t - \varphi] - cos[(\Omega + \omega)t + \varphi]\} \tag{28}$$

Bu ifadədən görünür ki, $\Omega - \omega$ və $\Omega + \omega$ tezliklərində harmonikaların amplitudları B və F əmsalları ilə düz mütənasibdir. Ona görə də əvvəlcə, ölçmə borusunu söndürüb $F\sin\Omega t$ - ni (yəni F-i) təyin edirik. Sonra isə $\Omega - \omega$ harmonikaların amplitudlarını F-ə bölüb, tam udulma üçün $B/2$ qiymətlərini tapırıq. Nəhayət, $\Omega - \omega$ harmonikaların fazalarını ölçməklə φ-ni təyin edirik.

A, B və φ kəmiyyətlərini ölçmək üçün təcrübi qurğunun blok-sxemi şəkil 2-də verilmişdir. A və B-nin nisbi qiymətləri sinxron detektorun çıxışında ölçülmüşdür, φ isə siqnalın maksimum qiymətində fazalar fərqinə görə təyin edilmişdir.



Şəkil 2. A, B və φ kəmiyyətlərini ölçmək üçün təcrübi qurğunun blok-sxemi: 1 – spektroqraf, 2 – Fotoelektron çoxaldıcı, 3 – darzolaqlı gücləndirici, 4 – sinxron detektoru, 5 – rəqəm voltmetri.

3-cü şəkildə heliumun triplet metastabil atomlarının konsentrasiyasının rəqslərinin nisbi amplitud (27) və fazasının (28) tezlikdən asılılıqları göstərilmişdir. Şəkildən göründüyü kimi, metastabil atomların konsentrasiyasının rəqslərinin amplitud tezliyin 2600 Hs qiymətində maksimuma malik olur və fazaya görə sürüşmə (boşalma cərəyanın rəqslərinə nisbətən) tezliyin həmin qiymətində işarəsini dəyişir. Boşalma cərəyanının modullaşması rejimində MS-nun xətti nəzəriyyəsi əsasında hesablanmış amplitud-tezlik və faza-tezlik xarakteristikalarından göründüyü kimi, tezliyin $v_0 = (2\pi)^{-1}\sqrt{\tau_a^{-1}\left(\tau_m^{-1} + \alpha_m n_0\right)}$ qiymətində təmiz pilləli ionlaşma rejimində metastabil atomların konsentrasiyasının rəqslərinin amplitudu maksimuma malik olur və fazası öz işarəsini dəyişir. Bununla yanaşı, təcrübi əyri nəzəri əyriyə uyğun gəlir. Əyrilər arasında yaranan sürüşmə isə onu göstərir ki, [8-10] nəzəriyyəsinə daxil olan effektiv kəsiyin qiymətini və reaksiyaların sürətini, həmçinin onların hasillərini dəqiq ölçmək mümkün deyil. Bundan başqa, pilləli ionlaşmada ikikvantlı səviyyələr də müəyyən rol oynayır ki, onların da yaşama müddətləri kifayət qədər kiçikdir.



Şəkil 3. Triplet metastabil helium atomlarının konsentrasiya rəqslərinin amplitud-tezlik (1) və faza-tezlik (2) xarakteristikaları: bütöv xəttlər – nəzəri hesablamalar, nöqtələr – təcrübi qiymətlər.

Beləliklə, qeyd edə bilərik ki, metastabil atomların konsentrasiyalarının kiçik sinusiodal dəyişmələrinin ölçmə üsulunu, həyəcanlaşmış atomların iştirakı ilə baş verən reaksiyaların sürətlərinin və reaksiyalar zamanı toqquşmaların effektiv kəsiklərinin təyinində istifadə etmək olar.

NƏTİCƏ

Beləliklə, aparılan tədqiqat işlərindən məlum oldu ki, kiçik tezliklərdə, rekombinasiya rejimində elektrik sahəsinin rəqsləri boşalma cərəyanının rəqslərinə nisbətən təqribən iki dəfə böyük olur. Bu cür güclənmə effekti müsbət sütunun diffuziya rejimində də baş verir. Tezliyin $v_0 = (2\pi)^{-1}\sqrt{\tau_a^{-1}\left(\tau_m^{-1} + \alpha_m n_0\right)}$ qiymətində boşalmanın pilləli ionlaşma və $v_0 = (2\pi\tau_a)^{-1}$ qiymətində isə birbaşa ionlaşma şəraitləri yaranır.

Boşalma cərəyanın rəqslərinə nisbətən, metastabil atomların konsentrasiya rəqslərinin amplitudu maksimuma malik olur və rəqslərin fazası işarəsini dəyişir. Bu halda tezliyin müəyyən qiymətində təmiz pilləli ionlaşma rejimi mövcud olur.

[1] *Rui Shao, Kalinin S., D.A. Bonelli.* Applied Physics Letters. 2003, v. 82, № 12, p. 1869-1871.

[2] *S. Sübhanian, Ə.X. Muradov,T.X. Hüseynov.* Bakı Universitetinin xəbərləri. 1996, Bakı, № 1, s. 24-30.

[3] *A.X. Мурадо.* Радиофизика. 1988, Россия, т.XXXI, с. 763-766.

[4] *В.Л. Грановский.* Электрический ток в газе. М.: Гостехиздат, 1952, т. 1, 374 с.

[5] *I. Polman, Van der Werf I.E., P.C. Drop.* J. Phys. D. Appl. Phys., 1972, v. 5, № 2, p. 266-279.

[6] *Ю. М. Каган, Р.И. Лягущенко, В.М. Миленин, А.Х. Мурадов.* ЖТФ, 1975, т. 45, № 5, с. 1019-1025.

[7] *Pfau S., Deutsch H.* // Beitr. Plasmaphys. – 1972. - v. 12. - № 14. - p. 213-320.

[8] *Ю.М. Каган,В.М. Миленин,А.Х. Мурадов.* ЖТФ, 1973, т. 43, № 9, с. 2003-2004.

[9] *А.Х. Мурадов.* Оптика и спектроскопия. 1985, т. 59, № 4, с. 901-903.

[10] *H. Deutsch.* Beitr. Plasmaphys. 1968, v. 8, № 1, p. 31-42.

[11] Спектроскопия газоразрядной плазмы. *Под. ред. С. Э. Фриша.* Л.: Наука, 1970, 362 с.

T. KH. HUSEYNOV

THE DINAMICAL PROPERTIES AND FREQUENCY CHARACTERISTICS OF ELEMENTARY PROCESSES IN GAS DISCHARGE

In the recombination regime at low frequency modulation of the discharge current the strength of the longitudinal electric field is exposed to fluctuations with modulation depth greater than the depth of modulation of discharge current. Such fluctuations may increase the average number of excitations and, consequently, the radiation efficiency of the discharge, because of the exponential dependence of excitation number of high-lying levels on electric field.

The oscillation amplitude of the populations of metastable levels of helium atoms has maximum at frequencies about of 2600 Hz and phase shift with respect to fluctuations of the discharge current at this frequency changes sign. On the basis of the linear theory of the positive column in the mode of modulation of the discharge current in the case of pure stepped ionization at frequency $\nu_0 = (2\pi)^{-1}\sqrt{\tau_a^{-1}\left(\tau_m^{-1} + \alpha_m n_0\right)}$ oscillation amplitude of the concentration of metastable atoms has maximum and the phase changes sign.

Т. Х. ГУСЕЙНОВ

ДИНАМИЧЕСКИЕ СВОЙСТВА И ЧАСТОТНЫЕ ХАРАКТЕРИСТИКИ ЭЛЕМЕНТАРНЫХ ПРОЦЕССОВ, ПРОИСХОДЯЩИХ В ГАЗОВОМ РАЗРЯДЕ

В режиме рекомбинации при довольно низких частотах модуляции разрядного тока напряженность продольного электрического поля подвергается колебаниям с глубиной модуляции, превышающей глубину модуляции разрядного тока. Из-за экспоненциальной зависимости от поля числа возбуждений высокорасположенных уровней такие колебания электрического поля могут привести к повышению среднего числа возбуждений и, следовательно, эффективности излучения разряда.

Амплитуда колебаний заселенностей метастабильных уровней атомов гелия имеет максимум при частотах порядка 2600 Гц, а сдвиг по фазе относительно колебаний разрядного тока при этой частоте меняет знак. На основе линейной теории положительного столба в режиме модуляции разрядного тока в случае чисто ступенчатой ионизации при частоте $\nu_0 = (2\pi)^{-1}\sqrt{\tau_a^{-1}\left(\tau_m^{-1} + \alpha_m n_0\right)}$ амплитуда колебаний концентрации метастабильных атомов имеет максимум, а фаза меняет знак.

Qəbul olunma tarixi: 04.06.2015

γ-RADİASİYANIN $CuGaSe_2$ MONOKRİSTALINA BİRBAŞA TƏSİRİNDƏN YARANAN QALIQ KEÇİRİCİLİK

İ. QASIMOĞLU, İ.A. MƏMMƏDOVA, C.Q. HÜSEYNOV, Ə. ƏLƏSGƏROV, Q. S. MEHDİYEV, ZƏFƏR QƏDİROĞLU, Ə.İ. BAĞIROV, İ. NƏSİBOV, N.V. MAHMUDOVA

AMEA, H.M.Abdullayev adına Fizika İnstitutu, H.Cavid 131, Bakı, Az 1143.

E-mail: gasimoglu@yahoo.com

Məqalədə $CuGaSe_2$ monokristalında qalıq keçiriciliyin öyrənilməsi üçün nümunənin xüsusi üsulla işlənməsi qeyd olunmuşdur. Sonra isə qalıq keçiriciliyi ifadə edən işlək hissənin (düz xəttin), yüksək enerjili zərrəcikləri qeyd edən cihazların (sayğacı kimi) əsas parametri olaraq göstərilmiş, həmçinin həmin paramertrin radiaktiv dozimetrlərin hazırlanmasında aparıcı rola malik olması qeyd olunmuşdur.

Pacs: 61.80.Ed
Açar sözlər: Keçiricilik, qısa-qapanma cərəyanı, radiasiya, yönəldici sahə.

$CuGaSe_2$ monokristalı $A^{I}B^{III}C^{VI}_2$ formulası ilə ifadə olunan yarımkeçirici birləşmələr ailəsinə mənsubdur, xalkoprit strukturunda (fəza qrupu 4,2m) kristallaşır [1]. Obyektin bağlı zonası (qadağan olunmuş zona) günəş elementləri üçün optimal olan qiymətə yaxındır [2]. Elmi ədəbiyyatda, lazer şüası, rentgen şüasının təsirindən yaranan qalıq keçiriciliyinə aid işlər vardır. Təqdim etdiyimiz məqalədə, γ-radiasianın birbaşa təsirindən yaranan, qalıq keçiricilik haqqında məlumat verilir.

Mövzunun aktuallığı: Təcrübədə alınan nəticə, dozimetrik cihazların əsas parametri olduğu üçün, elektron cihazqayırmada tədbiq imkanları genişdir [3].

Məsələnin qoyuluşu: Yönəldici (polyarizəedici) sahənin və γ-radiasiyanın birbaşa təsirindən yaranan qalıq keçiriciliyin araşdırılması və fiziki parametrlərdə yaranan müsbət dəyişmələrin müasir texniki tədbiq baxımından qiymətləndirilməsidir. İlkin olaraq nümunənin spektral paylanması çıxarılır. Sonra yönəldici sahənin təsiri öyrənilir (şəkil 1).



Şəkil 1.

Ardınca yönəldici sahənin müxtəlif qiymətlərindən sonra və γ-radiasiyanın birbaşa təsiri altında vəziyyət araşdırılır (şəkil 2, 3, 4). Bununla da klassik diodlarda olduğu kimi, qısa-qapanma cərəyanının qiyməti, işığın intensivliyinə görə deyil, işıq dalğalarının uzunluğuna görə hesablanır.

Qarşıya qoyulan məqsəd, işıq qeydedici cihazların, detektorların, indikatorların, dozimetlərin, müasir diodların əsas xarakteristikası olan işlək hissənin, sabitliyini qorumaqla, faydalı iş əmsalını artırmaqdan ibarətdir [4].



Şəkil 2.



Şəkil 3.



Şəkil 4.

Təcrübənin aparılması: $CuGaSe_2$ monokristalı qaz daşıyıcıları üsulu ilə alınmışdır, işığa həssasdır. Elektirik hərəkət qüvvəsinin işarəsinə görə, keçiriciliyin *p*-tip olduğu tərəfimizdən müəyyənləşdirilib. Kontaktlar gümüş pasta ilə qoyulmuşdur, omikdir. Işıqlanma dəqiq MDR-23 optik qurğusu ilə aparılmışdır. Nümunəyə sabit mənbədən yönəldici sahə verilmişdir. Sonra isə təcrübələr birbaşa γ-radiasiyanın altında davam etdirilmişdir. γ-kvantın energisi 1,25 MeV-dir. Təcrübə zamanı qamma dozanın qiyməti 10^5 qreyə bərabər olmuşdur. Şüalar nümunə üzərinə qurğuşun konteynerdə yerləşən (Co^{60}) radiaktiv elementindən düşür. Siqnal dəqiq ölçü cihazı olan (Ф-3017) mikrovoltnanoampermetrlə qeyd olunmuşdur.

Alınan nəticələrin müzakirəsi: Təcrübənin metodikası spektrin ilkin və təsirdən sonrakı vəziyyətinin araşdırılması üsuluna əsasən həyata keçirilmişdir. Nümunədə qalıq keçiriciliyi müşahidə etmək üçün, ona azot temperaturunda 1V/sm sahə verib, 1-dəqiqə gözləməklə işlək hala gətirmiş oluruq. Sonra təcrübələri otaq temperaturunda davam etdiririk. Birinci şəkildə spektral asılılıq və (1V/sm) sahənin təsirindən sonra çəkilmiş spektir (düz xətt) verilmişdir. Əsas udulma hissəsindən sağda heç bir dəyişmə yoxdur. Solda isə, böyük enerjili dalğalara uyğun hissədə, yuxarıya doğru paralel sürüşmə müşahidə olunur. Bu onu göstərir ki, yönəldici sahənin təsiri, kristalın keçiriciliyinin xüsusi oblastına təsir etmiş, aşqar oblasta isə təsir etməmişdir. İkinci şəkildə yönəldici sahə (3V/sm) olduqda, əsas udulma oblastı da daxil olmaqla spektir tam düz xəttə çevrilmişdir. Sonrakı təcrübələrdə də düz xətt, geniş dalğa intervalını əhatə etmişdir (500-1000nm). İkinci səkildə sahənin təsirini izləmək üçün, nümunəyə (5V/sm) yönəldici sahə verib spektral asılılığı təkrar edirik. Sonra həmin təcrübəni γ-radiasiyanın altında davam etdiririk. Kəskin fərq üçüncü və dördüncü şəkillərdə daha aydın görünür. Yönəldici sahənin (10V/sm), (100V/sm) verilən qiymətlərində çəkilmiş spektral əyrilər, birbaşa γ-radiasiyanın altında çəkilmiş əyrilərlə iki nöqtədə kəsişir. Həmin nöqtələr 580-600 nm və 780-800 nm dalğa uzunluqları hissəsinə düşür. Bu isə obyektin əsas udulma hissəsinin kənar noqtələri ilə uyğunluq təşkil edir. Yaranma səbəbini hələlik dəqiq bilməsək də, xaricdən təsir edən qüvvələrin təbiətindən və gücündən asılı olaraq, müxtəlif qiymətə malik yüklü zərrəciklərin yaranmasındakı qradiyent fərqindən qaynaqlandığını güman edirik. İkinci şəklin ikinci əyrisindən görünür ki, γ-radiasiyanın hesabına keçiriciliyin qiyməti də artmışdır. Düz xətt, özünə paralel olaraq, yuxarıya sürüşmüşdür. Dördüncü şəklin üçüncü əyrisindən görünür ki, yönəldici sahənin təsirindən sonra, keçiricilik daha çox artmışdır. Sahənin artmasına uyğun olaraq, uzun dalğalar tərəfdə keçiriciliyin qiyməti, qısa dalğalara uyğun hissəyə nisbətən çox artmışdır. Birbaşa γ-radiasiya ilə isə bu tərsinə baş vermişdir. Böyük energili dalğalar tərəfdə keçiricilik çoxalmış, kiçik energili dalğalar tərəfdə isə azalmışdır.

Yekun nəticə: Təcrübə nəticəsində aydın olmuşdur ki, xarici təsirin hesabına, keçiriciliyin qiyməti ya artmış ya da azalmışdır. Bizim fikrimizə görə bu, radiasiya zamanı fotonların kristalın səthində, və daxilindəki udulmalardakı say fərqindən qaynaqlanır. Yönəldici sahənin təsirindən isə çuxurlardakı yükdaşıyıcıların yürüklüyü artmış, və yükdaşıyıcılar rekombinasiya etməyə imkan tapmadan işarəsinin əksinə olan qütbə çatmışdır. Sahənin müəyyən bir qiymətində çıxış işi vahidə bərabər olmuş və spektral paylanma əyrisi sabit hala (doyma halı)) qayıtmışdır. Birbaşa γ-radiasiyanın təsiri altında yaranan defektlərin hesabına ümumi keçiriciliyin azalması və çoxalması mümkündür. Buradan aydın olur ki, uzun dalğalara məxsus intervalda sabit qiymətə malik olan işlək hissənin idarə olunması üçün, yeni üsul müşahidə etmiş oluruq. Bilirik ki, yüksək energili zərrəcikləri qeyd etmək üçün hazırlanan elektron cihazların əsas parametrik xarakteristikası olan işlək hissə böyük bir intervalda sabit qiymətə malik olmuşdur. Bu isə cihazların faydalı iş əmsalını yüksəltməyin vacib şərtlərindən biridir. İşlək hissənin uzun müddət sabit qalması fiziki cihazın keyfiyyətindən xəbər verir. Yönəldici sahənin və γ-radiasiyanın hesabına alınan qalıq keçiriciliyin sabitliyinin qorunub saxlanması, onun kənar qüvvələrin hesabına idarə edilməsinin mümkün olduğunu göstərir, bu da alınan nəticənin tədbiqi əhəmiyyətini bir daha artırmış olur. Elektron cihazları keyfiyyət baxımından müqayisə edərkən, işlək hissənin sabitliyi məsələsi əsas meyar olaraq göstərilir. Cihazların bir-birindən dəqiqliyinə görə fərqini işlək hissənin üfüqiliyi, geniş dalğa intervalında və temperatur intervalında sabitliyini müqayisə etməklə müəyyənləşdirmək olar.

[1] *İ. Kasumoglu, İ.A. Mamedova, G.G. Quseynov, M.A. Aliyev*. Fizika, 2012, vol. XVIII, N2, p 39-41.

[2] *И. Касумоглу, И.А. Мамедова, Г.С. Мехтиев, Д.Г. Гусейнов, М.А. Алийев, Н.В. Махмудова, А.С. Амирова*. AMEA Xəbərləri, 2012, N2, c.93-96.

[3] *А.Г. Ждан, М.А. Мессерер, А.С. Даревский.* ФТП, 1972, Т. 6, Т11, с. 2300-2301.

[4] *М.И. Корсунский.* Аномальная фотопроводимость и спектральная память в полупроводниковых системах. М.1978.

[5] *Г.Г. Чемерсюк и В.В. Сердюк.* ФТП, том 1, В3, 1967, с. 389-393.

[6] *А.Г. Ждан, А.Д. Отредов, М.И. Елинсон.* Радиотехника и электроника, Т. XII, N3, 1967. с. 569-571.

[7] *А.Н. Ионов, С.М. Рывкин, И.С. Шлимак.* ФТП, 1972, Т6, N11, стр. 2308-2310.

İ. Qasımoglu, İ. A. Mamedova, D. Q. Guseinov, A. Aleskerov, Q. S. Mehdiev, Zafar Kadiroglu, A. İ. Bagirov, İ. Nasibov, N. V. Mahmudova

RESIDUAL CONDUCTIVITY OF $CuGaSe_2$ UNDER DIRECT INFLUENCE OF γ -RADIATION

Residual conductivity of $CuGaSe_2$ single crystals, under direct influence of γ-radiation is experimentally obtained. The obtained working board is basic parameter of the devices and provides their qualitative and long-time work for registration of particles of high энергий.

И. Касумоглу, И.А. Мамедова, Д.Г. Гусейнов, А. Алескеров, Г.С. Мехтиев, Зафар Кадыроглы, А.И. Багиров, И. Насибов, Н.В. Махмудова

ОСТАТОЧНАЯ ПРОВОДИМОСТЬ МОНОКРИСТАЛЛОВ $CuGaSe_2$, ПОД НЕПОСРЕДСТВЕННЫМ ДЕЙСТВИЕМ γ-РАДИАЦИИ

Экспериментально получена остаточная проводимость монокристаллов $CuGaSe_2$ под непосредственным действием γ-радиации. Полученная рабочая плата является основным параметром приборов и обеспечивает их качественную и долговременную работу для регистрации частиц высоких энергий.

Qəbul olunma tarixi: 04.06.2015

METAL SİLİSİDİ – SİLİSİUM KOMPOZİTİ ƏSASINDA FOTOHƏSSAS ELEMENTLƏRİN HAZIRLANMA METODİKASI VƏ POTENSİAL ÇƏPƏRİN HÜNDÜRLÜYÜNÜN DƏYİŞMƏSİNİN TƏDQİQİ

E.Ə. KƏRİMOV
Milli Aerokosmik Agentliyi Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu
AZ 1106, S.S. Axundov 1, korpus 2

S.N. MUSAYEVA
Azərbaycan Texniki Universiteti
AZ 1100, H. Cavid pr. 25

IrSi-Si kontaktı əsasında Şottki çəpərli diodlar spektrin İQ – oblastında şüalanmanı qeyd etmək üçün detektorlar qismində istifadə edilə bilər. Lakin, belə qəbuledicilərin kvant effektivliyi darzonalı və *p-n* keçidli yarımkeçiricilər əsasında fotoqəbuledicilərlə müqayisədə çox kiçikdir. Kvant effektivliyini artırmaq üçün Şottki – qəbuledicilər aşağıda göstəriləcəyi kimi "optik polost" şəklində hazırlanır ki, burada IrSi-nin qalınlığı 100 Å-i keçməməlidir. Bu məqsədlə tərəfimizdən IrSi-Si nazik kontaktları almaq üçün çoxtəbəqəli metallaşma texnoloji rejimi işlənmişdir.

PACS: 73.40.NS; 73.40.Sx; 78.20.e
Açar sözlər: metal silisidi, potensial çəpər, fotohəssas struktur, oksidləşmə, termik emal.

Metal təbəqəsi ilə silisium arasında reaksiya vasitəsilə silisidin formalaşması zamanı metal təbəqə tərəfindən istifadə olunan silisiumun miqdarını nəzərə almaq lazımdır. Ir, Si, IrSi – nin sıxlıqlarının nəzəri qiymətləri istifadə olunmuş bu növ hesablamalar cədvəl 1-də verilmişdir.

Cədvəl 1.
Ayrı-ayrı təbəqələrin qalınığı

I qatın qalınlığı (Ir), Å	75
II qatın qalınlığı (Si), Å	13,2
III qatın qalınlığı (Ir), Å	10
VI qatın qalınlığı (Si), Å	13,2
V qatın qalınlığı (Ir), Å	10
VI qatın qalınlığı (Si), Å	13,2
VII qatın qalınlığı (Ir), Å	10

Lakin, bu rejimi həyata keçirmək tozlandırıcı qurğuların qeyri-mükəmməlliyi nəticəsində çətinlik yaradır. Ona görə də, sonrakı nəticələr birtəbəqəli metallaşma rejiminə aid olacaq. Birtəbəqəli metallaşma zamanı fotohəssas strukturların hazırlanması prosesini aşağıdakı sxem üzrə göstərə bilərik:
- *p* – tip silisiumun (və ya *n* - tip) oksidləşməsi (şək. 1);
- qoruyucu *n* (və ya *p*) oblastların formalaşması üçün pəncərələrin açılması (şək. 1 a);
- *n* – oblastların (və ya *p*) formalaşması üçün fosforun (və ya borun) diffuziyası;
- çəpər təbəqələrin formalaşması üçün pəncərələrin açılması (şək. 1 b);
- nazik metal (Ir) təbəqəsinin çəkilməsi (şək. 3.6 c);
- IrSi təbəqəsinin yaranması üçün vakuumda və qaz qarışığında termik emal (şək. 1 d);
- reaksiyaya girməmiş Ir-un və SiO_2-nin kənarlaşdırılması (şək. 1 e):
- TiW diffuziya-çəpər təbəqəsinin və alüminium kontaktının çəkilməsi (şək. 1 f);
- TiW ərintisinin və kontakt pəncərədə IrSi təbəqəsinə qədər Al-un kənarlaşdırılması (şək. 1 g);
- aydınlaşdırıcı örtüyün çəkilməsi (şək. 1 z).

Texnoloji əməliyyatları azaltmaq məqsədi ilə 3-5mkm spektral diapazonda işləyən fotoqəbuledicilərin hazırlanması üçün yeni metod [1-3] təklif edilmişdir ki, bu metod aşağıdakından ibarətdir:
- IrSi ərintisinin əvəzinə IrTiW və ya Tl/IrTiW istifadə etmək.

Əsas istiqamətlər üzrə texnoloji marşrut belədir:
- lövhələrin oksidləşməsi;
- oksiddə pəncərələrin açılması;
- IrTiW və ya Tl / IrTiW – in tozlandırılması;
- IrSi alınması üçün termik emal;
- pəncərədə TiW aşındırılması:
- alüminium kontaktın tozlandırılması.

Termik emal prosesində müxtəlif diffuziya əmsalları olduğundan göstərilən ərintiləri təşkil edən komponent faza təbəqələşməsindən keçir və iridium silisiumla reaksiyaya girərək silisid əmələ gətirir. Qalan TiW ərintisi isə aşındırılmır və cihazın deqradasiyasının qarşısını alan diffuziya çəpəri rolunu oynayır.

Şottki-emissiyasını xarakterizə edən mühüm parametrlərdən biri metal-yarımkeçirici sərhəddində potensial çəpərin ($q\varphi$ və ya $\varphi_Ç$) qimətidir. $\varphi_Ç$ – qiymətini təyin etmək üçün tam cərəyan metodundan istifadə etmək olar. IrS-*p*-Si və IrS-*n*-Si sərhəddində potensial çəpərin hesablanmış qiyməti uyğun olaraq 0,16 və 0,94 eV təşkil edir. Şottki çəpərinin verilmiş qiyməti ilə iridium silisidi- silisium kontaktını almaq üçün çəpərin hündürlüyünün termik emal temperaturundan asılılıq xarakterini təyin etmək lazımdır. Şəkil 2 a, b-də, uyğun olaraq IrS-*p*-Si və IrS-*n*-Si üçün hazırlanmış strukturların termik emal temperaturundan asılılığı verilmişdir.

Şəkildən göründüyü kimi *p*-tip silisium üçün çəpərin hündürlüyü termik emal temperaturundan zəif asılı olub 0,24 eV qiymətindən 0,16 eV qiymətinə qədər azalır. *N*-tip silisium üçün çəpərin hündürlüyü isə $T_{t.e} \approx 560°C$ temperaturunda maksimuma malik olub 0,94 eV qiymətini alır. Fərz edilir ki, $\varphi_Ç$ -in böyüməsi kontaktda kiçik

çəpərli fazanın yüksək çəpərli faza ilə əvəz olunması nəticəsində baş verir. $\varphi_Ç$ – nin termik emal temperaturundan asılılığının bu xarakteri onu göstərir ki, 500°C-yə qədər yaranan silisid metalla 500°C-dən yuxarı temperaturda yaranan silisid isə silisiumla zəngindir.

İndi isə IrSi-Si kontaktında yaranan potensial çəpərin hündürlüyünün azalmasını nəzərdən keçirək. Bu azalma multikontakt nəzəriyyə ilə [4,5] yaxşı izah olunur. Bu nəzəriyyədə izoxron termik emal zamanı çəpərin hündürlüyünün azalması onunla izah olunur ki, kontaktın heç də bütün sahəsi silisid (IrSi) deyil və müəyyən bir hissə fazalararası oksid və ya silisiumla örtülür. Buradan çəpərin həqiqi hündürlüyünü aşağıdakı formul üzrə hesablamaq lazımdır:

$$J = \left(S - S^{/}\right) AT^2 \exp\left(-\frac{q\varphi_Ç}{kT}\right)\left(\frac{\exp qU}{nkT}\right)^{-1} \qquad (1)$$

Burada, S – kontaktın tam sahəsi, $S^{/}$ – kontaktın qeyri-işçi sahəsidir. Buradan çəpərin həqiqi hündürlüyü üçün aşağıdakı ifadə alınır:

$$q\varphi_Ç = \left(\frac{kT}{q}\right)\ln\left[\frac{A^{*}T^2\left(S - S^{/}\right)}{J_S}\right] \qquad (2)$$

Şəkil 3-də çəpərin hündürlüyünün termik emal zamanından asılılığı verilmişdir.

Termik emal zamanı 30 dəqiqədən çox olduqda bütün tədqiq olunan temperatur diapazonunda $\varphi_Ç$ -in dəyişmə sürəti çox kiçikdir ki, bu da iridium silisid-silisium sərhəddində baş verən fiziki-kimyəvi reaksiyaların stabilləşdiyindən xəbər verir. Hazırlanan strukturların nəticələri cədvəl 2-də göstərilmiş silisium altlığın oriyentasiyasından asılı olan elektrofiziki xarakteristikaları tədqiq edilmişdir.



Şəkil 1. IrSi-Si kontaktı əsasında Şottki çəpərli strukturların hazırlanmasının texnoloji sxemi.



Şəkil 2. a) IrSi-*p*–Si və b) IrSi-*n*–Si strukturları üçün çəpərin hündürlüyünün termik emal temperaturundan asılılığı.



Şəkil 3. Çəpərin hündürlüyünün termik emal zamanından asılılığı: 1- 350°C, 2- 450°C, 3- 550°C.



Şəkil 4. Borun 51,42 mKl/sm^2 dozalı implantasiyasından sonra strukturların əks VAX$_{-1}$.

Cədvəl 2.

Strukturların silisium altlığın oriyentasiyasından asılı olan elektrofiziki xarakteristikaları

Altlığın tipi	Termik emal temperaturu, °C	Çəpərin hündürlüyü, $\varphi_Ç$ *J - U*	Çəpərin hündürlüyü, $\varphi_Ç$ *C - U*	İdeallıq əmsalı
<100>	250	0,94	0,91	1,05
	350	0,93	0,90	1,04
	400	0,91	0,93	1,08
	500	0,88	0,91	1,07
	600	0,86	0,91	1,18
<111>	250	0,93	0,92	1,06
	350	0,92	0,93	1,09
	400	0,91	0,87	1,10
	500	0,90	0,91	1,03
	600	0,88	0,86	1,14

Cədvəldən göründüyü kimi xarakterik qanunauyğunluq müşahidə olunur: <111> oriyentasiyası üçün bütün ölçülən kəmiyyətlər <100> oriyentasiyası üçün olan uyğun qiymətlərdən aşağıdır. İdeallıq əmsalı və ŞÇD-nin (Şottki çəpərli diod) çəpərinin hündürlüyünün ən kiçik qiymətləri *n*-Si üçün uyğun olaraq 1,03 və 0,91 eV-a bərabər olmuşdur. Tədqiqatlar göstərir ki, volt-amper xarakteristikasından təyin olunan İdeallıq əmsalı (*n*) 250 – 380°C temperaturda termik emal zamanı 1,04-ə bərabər olub altlığın oriyentasiyasından asılı deyil. 350°C temperaturdan yuxarı temperaturda termik emal zamanı *n* – artır, <111> oriyentasiyası üçün isə $T_{t.e}$ = 500°C temperaturda *n*- nin qiyməti 1,04-ə kimi azalır [6,7].

Potensial çəpərin hündürlüyü volt-farad xarakteristikalardan təyin edilmişdir. <100> oriyentasiyalı Si üçün termik emalın temperaturu artdıqca $\varphi_Ç$ zəif dəyişir və 0,93eV qiymətini alır, <111> oriyentasiyalı silisium əsasında alınmış strukturlar üçün isə $T_{t.e}$-nin artması ilə potensial çəpərin hündürlüyü 0,89 eV qiymətinə qədər azalır. $\varphi_Ç$-nin azalması üçün ion aşqarlanması metodundan da istifadə edilmişdir. $\varphi_Ç$-ni azaldan ion implantasiyası IrSi-nin yaranması üçün iridiumun çökdürülməsindən əvvəl həyata keçirilir. İon implantasiyası prosesi 51,42mKl/sm^2 dozasında "Vezuvi-3M" qurğusunda aparılır. İon yeridilməsindən sonra lövhələr kristallik strukturda defektlərin aradan qaldırılması üçün 1150°C temperaturda termik emala məruz qalır. Elektrik ölçmələrin nəticələri göstərir ki, əks cərəyanlar (şəkil 4.) dərinlik *d*>100Å olduqda kəskin artır ki, bu da diodların VAX-nın deqradasiya olunduğunu göstərir. Məlumdur ki, güzgü əksi qüvvələrin hesabına $\varphi_Ç$ - nin azalması aşağıdakı düstur üzrə təyin olunur:

$$\Delta\varphi = \frac{q}{2\varepsilon\varepsilon_0 \left(na/\pi\right)^{\frac{1}{2}}} \qquad (3)$$

$n{\cdot}a$=10·10^{12}sm^{-2} olduqda, $\Delta\varphi$>0,13eV. Elə bu səbəbə görə də, omik kontaktın yaranmasında problem yaranır.

[1] *N.F. Kazımov, E.Ə. Kərimov.* Fizika jurnalı, 2012, cild XVIII, №1, seriya: Az. s. 17-20.

[2] *E.Ə. Kərimov*. Fizika jurnalı, 2012, cild XVIII, № 3, seriya: Az. s. 6-8.

[3] *E.Ə. Kərimov*. Fizika jurnalı, 2011, cild XVII, № 3, seriya: Az. s. 29-30.

[4] *Э.А. Керимов.* Известия НАНА т. XXXI, №2, 2011, с. 166-168.

[5] E.A. Kerimov. Azerbaijan journal of physics, 2013, v. 19, № 1, p. 67-69.

[6] *M. Inagaki, K. Kaneko, T. Nishizawa.* Nanocarbons – recent research in Japan. Carbon. 2004, v. 42, p. 1401-1417.

[7] T. Ishida, H. Ikoma J.Appl. Phys., 1993, v.74, N6, p.3977 - 3982.

E.A. Kerimov, S.N. Musaeva

THE METHOD OF MANUFACTURE OF PHOTOSENSITIVE ELEMENTS BASED COMPOSITE METAL SILICIDE - SILICON AND STUDY OF CHANGES OF POTENTIAL BARRIER HEIGHT

Since the thickness of the metal silicide, and in our case IrSi not be more than 100Å, on our part the technological mode of multilayer metallization for preparation of ultrathin contacts IrSi-Si is proposed.

Э.А. Керимов, С.Н. Мусаева

МЕТОДИКА ИЗГОТОВЛЕНИЯ ФОТОЧУВСТВИТЕЛЬНЫХ ЭЛЕМЕНТОВ НА ОСНОВЕ КОМПОЗИТА СИЛИЦИД МЕТАЛЛА – КРЕМНИЙ И ИССЛЕДОВАНИЕ ИЗМЕНЕНИЯ ВЫСОТЫ ПОТЕНЦИАЛЬНОГО БАРЬЕРА

Так как толщина силицида металла, а в нашем случае IrSi не должна быть больше 100Å, с нашей стороны предложен технологический режим многослойной металлизации для получения сверх тонких контактов IrSi-Si.

Qəbul olunma tarixi: 22.09.2015

HEMOQLOBİNİN NİTRİTLƏRLƏ OKSİDLƏŞMƏ MODİFİKASİYASI VƏ SELENİUMUN PROTEKTOR ROLU. RAMAN SPEKTROSKOPİYASININ İMKANLARI

SEVİNC Y. HÜSEYNOVA, TOKAY M. HÜSEYNOV, MÜRSƏL Z. DADAŞOV
AMEA, H.M. Abdullayev adina Fizika İnstitutu
AZ 1073,Baki, H. Cavid pr. 131
e-mail: thuseynov@physics.ab.az

Məqalədə azot oksidin (NO), nitratların və nitritlərin insan orqanizminə təsirlərinin bioloji effektləri əks olunub. NO-din və onun törəmələrininin hemoqlobinin modifikasiyasına və prooksidant-antioksidant proseslərinin balansına təsiri, eləcə də seleniumun ehtimal edilən qoruyucu rolu müzakirə olunub. Hemoqlobində azot və seleniumun lokallaşma yerlərinin yaxın olmasını nəzərə alaraq seleniumun protektor rolu müzakirə olunub. Hemoqlobinin əsas struktur və funksional xüsüsiyyətlərinin ətraflı öyrənilməsi üçün Raman spektroskopiya üsulunun üstünlükləri qeyd edilib.

Açar sözlər: azot oksidi, hemoqlobin, selenium, Raman spektroskopiya
UOT: 577.3

Ətraf mühitin antropogen çirklənməsinin prioritet göstəricilərindən biri də sənaye və kimya istehsalının, nəqliyyat vasitələrinin, kənd təsərrüfatı və qida sənayesinin kimyalaşması ilə əlaqədar azot tərkibli birləşmələrdir [1, 2, 3, 4]. Bu isə insan və heyvan orqanizmində ekzogen nitrat-nitrit yükünün kifayət qədər artmasına gətirib çıxarır [5, 6].

Nitritlər bütöv orqanizmdən molekula qədər bütün struktur-funksional səviyyələrdə təsir göstərməyə qadirdirlər. Bu təsir mexanizmlərinin əsasında nitrat/nitrit-ionlarının azot monoksidə (NO) çevrilməsi reaksiyası dayanır [7, 8]. Kiçik ölçüləri və yüksüz olması NO molekulunun hüceyrə və subhüceyrə membranlarından yüksək keçiriciliyini təmin edir [9]. NO-nun molekulyar effektləri hemtərkibli quanilattsiklazanı fəallaşdırması, tsiklik QMF-ni artırması, dinitrozil dəmir komplekslərin, S-nitrozotiolların, NO_2 və OH-radikalların peroksinitritdən yaranması, Fe^{2+}-nin oksidləşməsi nəticəsində meydana çıxır.

Bundan başqa, NO-nun hüceyrə səviyyəsində təsiri, onun hüceyrədaxili Ca^{2+} konsentrasiyasının tənzimlənməsində, hüceyrələrarası siqnalizasiya, depolama və vazodilatasiyada, sitotoksik təsir və Fe^{2+}-dan asılı enzimlərin (ribonukleotid reduktazalar, akonitazalar və s) inaktivləşməsində özünü göstərir [10, 11]. NO bioloji molekulların oksidləşmə proseslərinnin həm stimullaşdırılmasına, həm də ki qarşısını almağa malikdir. [7, 12, 13, 14]. Azad NO molekulu hüceyrə membranlarında lipidlərin peroksidləşmə (LPO) proseslərini həm gücləndirir, həm də inhibitor təsiririni göstərərkən bioloji membranların zədələnməsinin qarşısını alır. Beləliklə, NO hüceyrədaxili və hüceyrələrarası proseslərin vacib tənzimləyicilərindən birdir. Xüsusilə, eritrositlərlərdə hemoqlobinlə birləşdikdə orqanizmin qaz mübadiləsinin və qan təzyiqinin əsas nizamlayıcısı kimi çıxış edir [15, 16, 17, 18].

NO və onun çoxsaylı çevrilmə məhsulları da fizioloji aktivliyə malikdirlər [19]. Onlardan biri də güclü oksidləşdirici və nitritləşdirici birləşmə olan peroksinitritdir ($ONOO^-$), o, superoksid anion ($O_2^{\cdot-}$) ilə NO-nun qarşılıqlı təsirindən yaranır. Peroksinitritin əsas hədəfi Hb olaraq, oksi və dezoksi Hb ilə qarşılıqlı təsiri zamanı met Hb-nin yaranmasına gətirir [20, 21, 22, 23].

NO-nun mübadilə məhsullarından olan nitrozotiollar, eyni zamanda, hemli və hemsiz mono- və dinitrozil kompleksləri xüsusi yer tutur. Onların hamısı müəyyən şəraitdə sərbəst NO əmələ gətirməyə qadirdirlər və canlı orqanizmlərdə NO mübadiləsi üçün əhəmiyyətlidirlər, çünki onun sabitləşməsi və daşınmasında iştirak edirlər. Qanda NO-nun hemoqlobinlə əmələ gətirdiyi kompleksləri onun fizioloji əhəmiyyətli birləşmələrindən sayılır [24].

Məlumdur ki, hemoqlobin "klassik allosterik zülallardandır", o özünə liqandlar birləşdirdikdə və onlardan ayrıldıqda öz konfiqurasiyasını da dəyişir ki, bu da onun fiziki-kimyəvi və funksional xüsusiyyətlərində əks olunur. Bu zaman, Hb bir subvahidinə birləşən liqand molekulun digər subvahidlərinin də xassələrinin dəyişməsinə səbəb olur [25]. O_2 molekulları Hb-nin allosterik effektorlarındandır, Cys β-93 SH-qrupları isə aktiv mərkəzləridir və Hb-nin fiziki-kimyəvi xassələri onunla O_2 birləşib birləşmədiyindən asılıdır [15, 26]. Son vaxtlar müəyyən olunub ki, NO da "allosterik" effektor funksiyasına malikdir və Hb-nin allosterik çevrilmələrində iştirak edir [15]. NO-nun porfirindəki dəmir (Fe^{2+}) atomu ilə bağlanma konstantı O_2-nə nisbətən xeyli yüksəkdir və ona görə də onunla rəqabət aparır [27]. Nəticədə, NO-nun Fe^{2+} atomu ilə birləşməsi Hb-nin hemoporfirinin konformasiyasını dəyişir və Hb-nin O_2-nə bağlılığını azaldır [28]. NO bir neçə üsullarla hemoqlobinlə birləşə bilir: NO hem qrupuna daxil olan dəmirlə bağlanmağa (nitrizilləşdirir), Hb β-subvahidinin Cys-93 qalığıyla dinitrozil dəmir kompleks şəklində birləşməyə və nitrozotiol Hb (Hb-SNO) əmələ gətirməyə malıkdir. NO Cys-93 SH-qrupu ilə birləşməsi Hb-nin O_2-nə olan bağlılığını artırır və O_2 ayrılmasını çətinləşdirir. Bu nitrozotiollar NO-nun metabolizmində mühüm rol oynayırlar [29].

Hb oksi-formadan dezoksi- formaya keçməsi, onun konformasiyasının dəyişməsinə və NO-nun sisteinin SH-grupundan hem qrupuna keçməsinə və ya sərbəst formada ayrılmasına səbəb olur. Hem-NO kompleksi fizioloji şəraitdə çox davamlıdır və NO-nun ondan azad olunması çox çətindir. Beləliklə, NO molekullarının sayının artması zamanı Hb onların utilizatoru kimi çıxış edir və onu geri dönməyən şəkildə özünə birləşdirir, özü isə oksidləşib met Hb-nə çevrilir. NO-nun subsaturasiya səviyyələri güclü transliqand effekti göstərir ki, bu da NO-hemlərinin

tərkibindəki Fe-un oksidləşməyə qarşı davamsızlığına gətirib çıxara bilər [24, 26]. Həmçinin, yuxarıda artıq qeyd olunduğu kimi, NO hemoqlobinin Fe^{2+} oksidləşdirərək Fe^{3+}-ə çevirir və met Hb əmələ gətirir [30]. Eritrositlərdə met Hb reduksiya edən met Hb-reduktaza sistemi MetHb-nin öhdəsindən gələ bilmədikdə və ya çox sayda Hb geridönməyəcək şəkildə NOHb-nə çevrildikdə Hb-nin O_2 daşıma xassələri pozulur, patoloji vəziyyət meydana çıxa bilir [26]. Hb-nin modifikasiya olunmuş məhsulları eritrositlərin membran strukturunun pozulmasına da səbəb ola bilər [31]. Hb-nin oksidləşməsi hüceyrədaxili met Hb artmasına, bu isə öz növbəsində Hb-nin membrana daxil olmasına şərait yaradır və membrana bağlı Hb_{mb} payının artmasına səbəb olur. Hb_{mb} səviyyəsinin artması eritrosit membranında ikiqat lipid təbəqəsinin struktur-funksional vəziyyətinin pozulmasını şərtləndirir ki, bu da Hb-nin və Met Hb-nin lipid qatının daha da dərinliklərinə nüfuz etməsinə şərait yaradır [32, 33, 34]. Met Hb və membrana-bağlı Hb_{mb}-nin artması təkcə NO-nun Hb-nə birbaşa təsiri ilə deyil, eyni zamanda NO-nun hüceyrədə metabolik proseslərə təsiri ilə də baş verə bilər [35].

Nitrat/nitrit intoksikasiyalarının digər mühüm aspekti antioksidant müdafiə sisteminin fəallığının azalması, prooksidant-antioksidant tarazlığının pozulmasıdır [36, 37]. Bu zaman əsas aparıcı mexanizm eritrositlərdə antioksidant enzimlərin fəallığının azalması fonunda peroksid oksidləşmənin artmasıdır [36, 37, 38, 39]. Məlumdur ki, hemoqlobinin oksidləşməyə qarşı dayanıqlılığını selenenzim qlutationperoksidaza (SeQP, KF1.11.1.9) və bizim laboratoriyada aparılan tədqiqatlarda da təsdiq olunduğu kimi Hb-nin tərkibinə daxil olmuş Se təmin edir [40].

Bizim laboratoriyanın əməkdaşları tərəfindən dəniz donuzcuğu və sicovullar üzərində aparılmış təcrübələrdə heyvanlara natrium-selenit yeridilməsi ilə müəyyən olunub ki, Hb-nə birləşən ekzogen Se yeni QP molekullarının hələ sintez olunmadığı şəraitdə belə Hb-nin oksidləşdirici rezistentliyini artırır: ekzogen Se-lə zənginləşdirilmiş heyvanlarda ilk 2 saatda QP aktivliyi artmır, amma Hb-nin antioksidləşdirici dayanıqlılığı hər iki heyvanda artır [40, 41, 42, 43].

Hb-nin aktiv mərkəzi, onun aminturşu ardıcıllığı və hem qrupunda olan Fe ətrafında liqand əhatəsi klassik peroksidazalara oxşar olduğundan, o, GSH olduğu mühitdə antioksidant kvazi QP aktivliyi göstərir və Se birləşməsi onun peroksidaza xüsusiyyətlərinə təsir edir [44, 45, 46, 47, 48, 49].

Naqasaki Universitetində Se eritrositlərdən plazmaya daşınması ilə bağlı aparılan tədqiqatlarda müəyyənləşdirilib ki, Se Hb β-zəncirinə Cys-93 aminturşusu yerindən birləşir [50]. Göstərilən sayt həm də NO ilə Hb-nin birləşdiyi yer olduğuna görə nitrat/niritlərin toksik dozalarının eritrositlərdə və hemoqlobində yaratdığı oksidləşdirici effektlər və orqanizmdə yaranan hipoksiya hallarında Se-nin protektor rolunun öyrənilməsi mühüm əhəmiyyət daşıyır [54].

Məlumdur ki, bioantioksidant amili olan selenin çatışmazlığı orqanizmdə oksidləşdirici dayanıqlığın zəifləməsinə gətirib çıxarır ki [51], bu da nitritlərin oksidləşdirici təsirinin güclənməsinə, ONOO- daha çox sintezinə səbəb ola bilər və s. Selenenzimlərin vasitəsilə nitrat/nitritlərin oksidləşdirici zərərli təsirindən qorunması selenium peroksinitritin əmələ gəlməsini, met Hb səviyyəsini və endogen N-nitrozaminlərin sintezinin azaltması ilə bağlıdır [52, 53].

Bizim laboratoriyanın əməkdaşları tərəfindən müəyyən olunub ki, qanın ekzogen Se (natrium selenit) ilə zənginləşdirilməsi MetHb əmələ gəlməsinə, LPO sürətinin azalmasına və QP fəallığının artırılmasına gətirib çıxarır. Se-nin bu müdafiə effektivliyi Hb-nin nitritlərlə ilkin əlaqəsindən asılıdır. Yəni, eritrositlərin və Hb-nin Se-lə zənginləşdirilməsi hüceyrələrdə oksidləşdirici proseslərin intensivliyini azalda bilər [40, 42, 43].

Ətraf mühitin zərərli amillərindən ultrabənövşəyi şualar (UBŞ) və yüksək gərginlikli elektrik sahəsinin təsirinə məruz qoyulmuş eritrositlərin lizatlarının gel-xromatoqrafik ayrılması göstərir ki, selenlə az zəngin olan eritrositlər induksiyalanan oksidləşdirici stressə daha həssasdırlar. LPO intensivliyinin dəyişməsi ilə yanaşı antioksidant enzimlərin (katalaza, SeQP və kvaziQP - Hb) fraksiyalarında müxtəlif dəyişikliklər müşahidə olunur. Öyrənilən fiziki amillərin aşağı dozalarında Hb-nin peroksidaza aktivliyinin artması Hb molekulunun subvahidlərinə parçalanması, yüksək dozalarda zəifləməsi isə artıq subvahidlərin özlərində dəyişikliklər baş verməsi ilə baqlıdır.

Beləliklə, Hb defraqmentasiyası eyni zamanda Se-nin yuyulub ayrılması ilə (Se aşağı xromatoqrafik zonadan daha yuxarı zonalara keçir) müşahidə olunur. Yəni, Hb defraqmentasiyası və Se-nin ayrılması Hb-nin peroksidaza fəallığının azalmasını, Se-nin Hb-nə birləşməsi isə onun QP aktivliyi ilə əlaqəsinin olmasını göstərir [48, 49].

İnsan orqanizmində nitrat/nitrit intoksikasiyaları zamanı fərqli və ağır metabolik pozğunluqların yaranması qan komponentlərinin, o cümlədən Hb-nin fiziki-kimyəvi və fizioloji xüsusiyyətlərinin hərtərəfli öyrənilməsinə əsas verir.

Eritrositlərin əsas funksiyası olan O_2 daşınmasında meydana gələn patoloji proseslərin molekulyar səviyyədə öyrənilməsi üçün son illər optik spektroskopiyanın nisbətən yeni metodlarından olan işığın kombinasyon səpələnməsi (İKS) və ya Raman spektroskopiya (RS) usulundan daha geniş istifadə olunur [54, 55]. Metodun əsasında maddə üzərinə düşən həyəcanlandırıcı işığın tezliyinin dəyişməsi durur və bu halda spektral xətlərin sayı və yerləşməsi maddənin molekulyar quruluşu ilə sıx sürətdə bağlıdır [56, 57]. Metod qeyri-destruktiv olub, molekulda atomların yerləşməsi və kimyəvi rabitələr, həmçinin yaxınlıqda olan digər hissəciklərlə qarşılıqlı əlaqəsi haqqında məlumat verir [56, 58, 59]. Digər texnologiyalarla müqayisədə bu usul kiçik konformasion dəyişikliklərə də yüksək həssaslıq göstərir, nisbətən sadə nümunə hazırlama proseduruna sahibdir və nümunələrin az miqdarından istifadə etmək imkanı verir. Metod suyun təsirindən azad olduğu üçün, adekvat məlumat almaq və sulu məhlullarda da istifadə etmək mümkündür [54]. Bu metodla spektrlərin qeydi üçün UB, görünən və yaxın infraqırmızı (İQ) işıq lazerlərindən istifadə olunur. Hal-hazırda İKS-in müxtəlif variantları inkişaf etdirilib: a) adi KS; b) yaxın İQŞ KS; c) rezonans KS; d) mikro-raman spektroskopiya; lazer "pinseti" istifadə etməklə konfokal mikro RS; e) nəcib metal nanohissəciklərin istifadə olunduğu səthdəgücləndirilmiş RS (SERS - raman scattering surface enhanced). Son variant adi KS variantlarında qeyd olunduğundan daha yüksək intensivliklərdə siqnal almağa imkan verir və hazırda intakt eritrositlərdə Hb_{mb} konformasiya və O_2 birləşdirmə xassələrinin tədqiqində əvəzedil-

məz üsuldur, çünki digər spektroskopik üsullar ümumi Hb-nin 5% miqdarında olan Hb_{mb} qeyd etmək iqtidarında deyildir. Bundan başqa, metodlarda həssaslıq, fəza ayırdetmə qabiliyyəti, nüfuzetmə dərinliyi və darama sürəti istifadə olunan texnika və alətlərin (mikroskopun obyektivi, difraksiya qəfəsi, lazerin gücü, düşən və qeydə alınan şüalar arasında həndəsi bucaq) nizamlanmasından da çox asılıdır [60, 66].

KS istifadəsi Hb-nin əsas struktur-funksional göstəricilərini ətraflı öyrənməyə imkan verir, molekulun quruluşu, metin körpülərin rəqsləri, O_2-nə meyillik dərəcəsi, liqandları birləşdirmək və ya ayırmaq qabiliyyəti və s. [61].

Porfirinin π orbitallarında elektronların paylanmasında dəyişikliklərə səbəb olan istənilən effekt, o cümlədən hemdə Fe-un valentiyinin dəyişilməsi KS spektrində müvafiq zolaqların tezliyinə təsir göstərir [62].

G. Shi-jun əməkdaşları ilə birlikdə $NaNO_2$ ilə induksiyalanan MetHb-nin raman spektral xarakteristikalarını tədqiq etmişdir.

Nəticələr göstərir ki, Hb–nin metHb-ə tam oksidləşməsinə $NaNO_2$-nin Hb-ə molyar nisbəti 3,5:1 olduqda tam nail olmaq olur. Bu zaman səciyyəvi maxsimumları 499, 1340, 1562 və 1622 sm^{-1} ətrafında lokallaşırlar və nitrit konsentrasiyasını əks etdirirlər.

1586, 1605 və 1637 sm^{-1}-də $NaNO_2$ və Hb-nin müxtəlif nisbətlərində metHb/umumi Hb üçün intensivliyin korrelyasiya əmsalı tapılmışdır və bu 0,973, 0,998 0,991 qiymətlərinə müvafiq olaraq xətti korrelyasiyanın mövcud olduğunu göstərir. Bütün bunlar onu göstərir ki, $NaNO_2$ ilə induksiyalanan MetHb-nin raman spektrləri normal Hb-lə müqayisədə səciyyəvi fərqlərə malikdir [63]. Beləliklə, Hb-in konformasiyasinin və xassələrinin öyrənilməsi zamanı Raman spektrində zolaqların olması Hb-nin quruluş-funksional halını əks etdirir. İ1375/(İ1375+İ1355) intensivliklər nisbəti qanda ümumi oksiHb nisbi miqdarını, İ1355/İ1550 və I1375/ı1580 nisbətləri Hb nisbi liqand birləşdirmə qabiliyyətini, (İ1355/İ1550)/(İ1375/İ1580) mütləq nisbətləri Hb liqandlara, ilk növbədə O_2 meyillik əmsalını əks etdirir. İ1375/İ1172 nisbəti Hb pirrol həlqələrində simmetrik və asimmetrik rəqslərin səviyyəsi haqqında məlumat verir, onun dəyişməsi isə pirrol həlqələrdə konformasiya dəyişiklikləri ilə bağlı ola bilər. Hb-nin molekulyar strukturunda olan bu dəyişiliklər onun funksional xassələrinə təsir edir [55].

İ1618/İ1580 intensivliklər nisbəti Fe^{2+} və qlobin arasında rabitə olduqda, İ1668/İ1580 nisbətləri isə Fe^{2+} və qlobin arasında rabitə olmadıqda qanda HbNO komplekslərinin miqdarını əks etdirir [64, 65].

Müxtəlif liqandların iştirakı ilə Hb-nin konformasion dəyişiliklərinin dinamikasının öyrənilməsi onun modifikasiyasının mexanizmlərini və patoloji vəziyyətlərə çevrilmə yollarının dərk olunmasında vacib həlqədir.

Bütün bunlar Hb-də oksidləşdirici və spin modifikasiyalarını aşkar etmək, HbO_2 ilə metHb arasında spektral fərqlərinin analizi və metHb-nin müəyyən xarakteristikalarını öyrənmək üçün bu metodun geniş istifadə olunmasına imkan verir. Müxtəlif Hb formalarının xarakterik maksimumlarının olması və mikromühitdəki dəyişikliklər zamanı intensivliklərin xətti korrelyasiyası nitritlərlə induksiya olunan methemoqlobinemiyaları kəmiyyət və keyfiyyət baxımından tədqiq etməyə imkan verir.

Bu istiqamətdə bizim laboratoriya, Raman spektroskopiyası metodunun da köməyindən istifadə etməklə, ətraf mühitin zərərli antropogen amillərinin, o cümlədən nitrat/nitrit intoksikasiyalarının eritrositlərdə və Hb meydana gətirdiyi oksidləşdirici dəyişikliklər tədqiq olunur.

---

[1] *О.А. Соколов, В.М. Семенов, В.А. Агаев.* Нитраты в окружающей среде. Пущино: ОНТИ НЦБИ, 1990, 316 с.

[2] *В.Т Леонов.* Научные и технологические основы утилизации и переработки оксидов азота из отходящих газов: Автореф, дис. …док. техн. Наук, М., 2009, 31 с.

[3] Экологические проблемы накопления нитратов в окружающей среде. Пущино: ОНТИ НЦБИ, 1989, 152 с.

[4] *В.М. Семенов*. Проблемы агрохимии и экологии. 2008, №1, с. 55-63.

[5] *Ф.В. Кряжимский, В.Н Большаков., В.И. Корюкин.* Экология. 2001, №6, с. 403-408.

[6] *В.Д. Суржиков.* Гигиена и санитария. 2003, №6, с. 85-87.

[7] *В.П. Реутов., Е.Г. Сорокина., Л.П. Каюшин*. Вопр. мед. химии, 1994, т. 40, №6, 31-35.

[8] *K.A. Hanafy, E. Martin and F. Murad.* 2004, J.Biol.Chem., 279, 46946-46953

[9] *В.П.Реутов, Е.Г.Сорокина, В.Е.Охотин, Н.С.Косицин.* Циклические превращения NO в организме млекопитающих. М.: Наука., 1998, с. 159.

[10] N.*J. Watmough, G. Butland, M.R. Cheesman, J.W.B. Moir, D.J. Richardson, S. Spiro*. Biochim. Biophys. Acta, 1999, v. 1411, p. 456-474.

[11] *О.А. Ракова.* Синтез и исследование нитрозильных серусодержащих комплексов железа: дисс. канд. хим. наук., Черноголовка, 2003, 120 с.

[12] *KA. Hanafy et al.*. 2001, Med Sci Monit. 7(4):801-819.

[13] *Е.Б. Меньшиков, Н.К. Зеньков, В.П. Реутов*. Биохимия. 200, т. 65, вып 4, с. 485-503.

[14] *В.В. Новицкий.* Бюллетень экспериментальной биологии и медицины. 2006, т.142, №11. с.509-13.

[15] "Duke researchers discover central role of Nitric Oxide in hemoqlobin action." Duke Medicine News and Communication. 3 Nov. 2004.

[16] *А.Ф. Ванин.* Оксид азота регулятор клеточного метаболизма. Соросовский образовательный журнал, т. 7, №11, 2001, с. 7-12.

[17] *И.Ю. Малышев., Е.Б. Манухин.* Биохимия, 1998, т.63, с. 992-1006.

[18] *H. Tavaf-Motamen, T.J. Miner., B.W. Starnes et al.* J. Surg Res.,1998, vol.78, n 2, p.137-142.

[19] *Г.Г.Осипов, Ю.А.Борисенко, А.Н.Владимиров.* Успехи биологической химии, 2007, т.47, с. 259-292.

[20] *М.Н. Стародубцева, В.А. Игнатенко, С.Н. Черенкевич.* Биофизика, 1999, т.44, вып. 6, с. 1068-1072.

[21] *М.Н. Стародубцева, С.Н. Черенкевич.* Изв. НАН Беларуси. Серия медико-биол. Наук, 2003, №2, с.86-90.

[22] *A.L. Alayash, B.A. Brockner Ryan, R.E. Cashon.* Arch. Biochem. Biophys. 1998, 349, p. 65-73.
[23] *S. Herold, K. Shivashankar.* Biochemistry. 2003, 42(47), p. 14036-46.
[24] *К.Б. Шумаев, О.В. Космачевская, А.Ф. Тапунов.* «Химия и жизнь», 2008, № 4, с. 22-25.
[25] *Л.И. Иржак*. Гемоглобины и их свойства. Изд. «Наука», Москва 1975, 239 с.
[26] *М.К. Рубан, Г.А. Вашанов, И.А. Лавриненко*. Вестник ВГУ, Серия: Биология. Фармация, 2010, №1, с. 56-61.
[27] *М.Н. Стародубцева, С.Н. Черенкевич*. Изв. НАН Беларуси. Серия медико-биол. наук. 2003, № 2, с. 86-90.
[28] *A.I. Hobbs, M.T. Gladwin, R.P. Patel, D.L.H.Williams, A.R. Butler*. Haemoglobin: NO transporter, NO inactivator or NOne of the above. TRENDS in Pharmacological Science. 2002, v. 23, p.406-411.
[29] *C. Bonavertura*. Effects of S-Nitrosation on Oxygen Binding by Normal and Sickle Cell Hemoqlobin. *C.Bonavertura, G. Ferruzzi, S.Tesh, R.D. Stevens*. Journal Of Biological Chemistry. 1999, vol, 274, № 35, p. 24742-24748.
[30] *М.Д. Трухина*. Химия: прил. к газ. "Первое сент.", 2001,№31, с. 1-2.
[31] *Y. Cui, Z. Guo, Y. Zhao, Y. Zheng, Y. Qiao, J. Cai, S. Liu.* Acta Biochim. Biophys. Sin. (Shanghai). 2007; 39 (7), p. 484-489.
[32] *И.А. Шперлинг, Н.В. Рязанцева, Н.П. Куприна и др.* Современные наукоемкие технологии. 2004, №6, с. 104-105.
[33] *Н.А. Кленова*. Вестник, 2002, СамГУ-2002, №2(24), с. 158-162.
[34] *Е.И. Слобожанина, Е.А. Черницкий, Н.М. Козлова.* Биофизика. 1982, т. 27, №3, с. 425-429.
[35] *Н.А Кленова, М.Ю. Языкова.* Влияние экзогенных нитрозотиолов на состояние гемоглобина в эритроцитах человека. Самара, сборник научных трудов «Актуальные проблемы биологии, медицины и экологии». 2004, выпуск 1.
[36] *А.Т. Бурбелло, Г.А. Баскович, Е.Г. Доброхотова, В.И. Слесарев.* Гигиена труда и профзаболеваний. 1991, № 8, с. 13-15.
[37] *C.K. Crow*. Toxicol. Lett.,1984, v.23, №l, p.109-114.
[38] *И.В. Шугалей, С.Н. Львов, И.В. Целинский*. Украинский биохимический журнал. 1992, №2, с.111-114.
[39] *В.П. Дерягина.* Токсикологический вестник. 2003, №6, с.20-25.
[40] *Т.М. Гусейнов, Ф.Р. Яхъяева, Р.Т. Гулиева*. Укр. биохим. журн., 2012, т. 84, №2, с. 53.
[41] *Т.М. Гусейнов, Р.Т. Гулиева, Ф.Р. Яхъяева.* Селен как антиокислительная «примесь» в гемоглобине. Материалы III Международной конференции, «Химия, структура и функция биомолекул», 1-3 октября 2008, Минск-Беларусь, с.89.
[42] *Т.М. Гусейнов, Ф.Р. Яхъяева.* Фотохимические окислительные процессы в эритроцитах животных с отличным метаболизмом селена. 9-й съезд Белорус. обществен. объединения фотобиологов и биофизиков. Материалы междунар. науч. конфер. «Молекулярные, мембранные и клеточные основы функционирования биосистем». Минск, Беларусь, 2010, Сб. ст., ч. 2, с. 332-334.
[43] Т.*М. Гусейнов, М.З. Дадашов, Р.Т. Гулиева. Ф.Р.Яхъяева.* Обеспеченность селеном гемоглобина как антиокислительный фактор при стресс-сорных воздействиях. VIII Международ. конфер. Биоантиоксидант. Тез. док., 04-06 Октябрь, Москва, Россия, 2010, с.132-133.
[44] *Welinder, Mazza,* 1977- 20. K.G.*Welinder*, G.*Mazza*. Eur. J. Biochem, 73 (1977), pp. 353–358. [SD-008].
[45] *A.I. Alayash.* Redox Biology of Blood. *A.I. Alayash*. Antioxidant and Redox Signaling. 2004, vol. 6, №6, p. 941-943.
[46] *С.Д. Балаховский, И.С. Балаховский*. Методы химического анализа крови. Медгиз, 1953, 748 с.
[47] *И.Ф. Долманова, Н.Н. Угарова.* Ферментативные методы анализа. Журнал аналитической химии, 1980, т. 35, №8, с. 1597-1639.
[48] *T.M. Huseynov, R.T. Quliyeva, F.R. Yakhyayeva, E.M. Zeynalli, T.A. Mamedova* Effect of high intensity electric field on the peroxidase activity of the haemoglobin of red blood cells with G-6-PhD deficiency/The 9th International Conference on Technical and Physical Problems in Power engineering. Istanbul, Turkey, 9-11 September, 2013, p.520-523.
[49] *Т.М. Гусейнов, Р.Т. Гулиева, Ф.Р. Яхъяева, Э.Д.Багирова.* Электронный журнал «Вестник Новосибирского государственного педагогического университета». Новосибирск, 2013, 6 (16), с.106-114.
[50] *Hongoh, Masafumi; Haratake, Mamoru; Fuchigami, Takeshi; Nakayama, Morio.* A thiol-mediated active membrane transport of selenium by erythroid anion exchanger 1 protein. 2012 The Royal Society of Chemistry. 33 p.
[51] *И.В. Гоголева, О.А Громова*. Практика педиатра. 2009, март. с. 6-9.
[52] *C.K. Chow , C.B. Hong* .Toxicology. Dietary vitamin E and selenium and toxicity of nitrite and nitrate. 2002. Nov 15; 180(2), p. 195-207.
[53] *С.Г. Власкина*. Влияние некоторых алиментарных факторов на токсическое действие нитринов и эндогенный синтез N нитрозаминов: автореф. дисс. ... канд. Мед. наук, Москва, 1995, 18 с.
[54] *MF. Zhu, Ye XP, YY. Huang , ZY. Guo, ZF. Zhuang, SH. Liu.* 2014 Wiley Periodicals, Inc. Volume 36, Issue 5, p. 471-478, September/October 2014.
[55] *А.П Власов., В.А Трофимов., Т.В. Тарасова и др.* Структурно-функциональное состояние гемоглобина. Современные проблемы науки и образования. 2012. № 6.
[56] *П. Кэри.* Применение спетроскопии КР и РКР в биохимии. под ред. *Б.В. Локшина*. М.:Мир, 1985. 272 с.
[57] *К.Н. Соловьев, Л.Л. Гладков, А.С. Старухин.* Спектроскопия порфиринов: Колебательные состояния. Минск: Наука и техника, 1985, 415с.
[58] *Л.В. Левшин, А.М. Салецкий*. Оптические методы исследования молекулярных систем. Ч.1. Молекулярная спектроскопия. Москва: Изд. Московского университета, 1994.

[59] *Ю.А. Пентин, Л.В. Вилков.* Физические методы исследования в химии. Москва: Мир, 2003.
[60] Raman spectrosopy as a new biochemical diagnostic tool. Faculty of Pharmacy, University of Belgrade, Serbia. J. Med. Biochem 2013, 32 (2), p. 96-103.
[61] *Е.В. Котлова.* Клинико-патогенетическое значение нарушений липидного метаболизма в развитии гипоксии плода при преэклампсии: автореф. дисс. канд. мед. наук, Самара, 2015, 23 с
[62] *Г.В. Максимов, Н.В. Максимова, А.А. Чурие и др*. Исследование изменений конформации порфирина гемоглобина при первичной гипертензии. Биохимия, 2001, т. 66, вып 3, с. 365-370.
[63] GUO. *Shi-jun; ZENG, Chang-chun; LI, Li-jun; NIE, Guang*; LIU, *Song-hao*. Spectroscopy and Spectral Analysis, Volume 33, N. 7, 15 July 2013, pp. 1805-1809(5).
[64] *Л.В. Кузьмичева., Е.А. Акимова.* Исследование O_2 - связывающих свойств гемоглобина в эритроцитах при ишемической болезни сердца. Международный журнал прикладных и фундаментальных исследований, материалы конференций. № 3, 2014, (часть 2), с. 109-110.
[65] *Н.А. Браже., О.Г. Лунева., Н.В. Максимова, Н.Ю.Брызгалова и др.* Эритроцитарный уровень сердечно сосудистых заболеваний. "Математика. Компьютер. Образование". Сб. трудов XV международной конференции. Ижевск:, 2008. Т. 3, 200 стр. с. 93-98.
[66] Нанобиотехнологии: практикум. под ред. *А.Б.Рубина.* 2-е изд. М. : БИНОМ. Лаборатория знаний, 2013. 384 с.

Sevinch Y. Huseynova, Tokay M. Huseynov, Mursal Z. Dadashev

OXIDATIVE MODIFICATION OF HEMOGLOBIN BY NITRITES AND PROTECTIVE ROLE OF SELENIUM. PERFORMANCE CAPABILITIES OF RAMAN SPECTROSCOPY

The mini-review contains brief characteristics of biological effects of nitric oxide (NO) and exposure of nitrate-nitrite on human organism. Modifying effect of NO and its derivatives on the state of hemoglobin and the processes of prooxidant-antioxidant balance and possible protective role of selenium in it were considered. Protective role of selenium is discussed with taking into account the proximity of localization of the area where nitric oxide and selenium connect in hemoglobin. The advantages of the use of Raman spectroscopy as an ideal method for the detailed study of the major structural and functional characteristics of hemoglobin were focused.

Севиндж Я. Гусейнова, Токай М. Гусейнов, Мурсал З. Дадашев

ОКИСЛИТЕЛЬНАЯ МОДИФИКАЦИЯ ГЕМОГЛОБИНА НИТРИТАМИ И ПРОТЕКТОРНАЯ РОЛЬ СЕЛЕНА. ВОЗМОЖНОСТИ РАМАН СПЕКТРОСКОПИИ

В обзоре дана краткая характеристика биологических эффектов оксида азота (NO) и нитрат-нитритного воздействия на организм человека. Рассматривается модифицирующее влияние NO и его производных на состояния гемоглобина и на процессы прооксидантно-антиоксидантного равновесия, а также возможная защитная роль селена в нем. Протекторная роль селена обсуждается с учетом близости локализации места связи оксида азота и селена в гемоглобине. Отмечены преимущества применения Раман-спектроскопии, как идеального метода для детального изучения основных структурно-функциональных показателей гемоглобина.

Qəbul olunma tarixi: 29.09.2015

FİZİKİ TERMİNLƏR VƏ İFADƏLƏR

A.İ. MUXTAROV
BDU, Z. Xəlilov, 23

M.A. MUXTAROV
AMEA, Riyaziyyat və Mexanika İnstitutu
Baki şəh., F. Ağayev küç, 9.

T.R. MEHDİYEV, K.B. QURBANOV, E.A. AXUNDOVA, N.A. AXUNDOVA, N.İ. HÜSEYNOVA, S.İ. ƏLİYEVA, E.Ə. ƏLƏSGƏROVA
AMEA, akademik H.M. Abdullayev adına Fizika İnstitutu
Az-1143, Bakı şəhəri, H. Cavid pr.,131.

Ə

ə0001	əbədilik (daimilik), dözumlülük	durability	долговечность, выносливость
ə0002	ədalətli	fair	справедливый
ə0003	ədədi diferensiallama	numerical differentiation	численное дифференцирование
ə0004	ədədi düz xətt	number line	числовая прямая
ə0005	ədədi əmsal	numerical coefficient	числовой коэффициент
ə0006	ədədi həll	numerical solution	численное решение
ə0007	ədədi hesablanma	numerical computation	числовой расчет
ə0008	ədədi inteqrallama	numerical integration	численное интегрирование
ə0009	ədədi məlumatlar	principal quantum number	числовые данные
ə0010	ədədi məsafə	numerical distance	численное расстояние
ə0011	ədədi proqnoz	numerical forecasting	численный прогноз
ə0012	ədədi qiymət	numerical value	численное значение
ə0013	ədədi rabitə	numerical bonding	числовая связь
ə0014	ədədi sfera	number-sphere	числовая сфера
ə0015	ədədi sahə	number field	числовое поле
ə0016	ədədi təcrübə	numerical experiment	численный эксперимент
ə0017	ədədi analiz	numerical analysis	численный анализ
ə0018	ədədi ardıcıllıq	sequence of numbers	числовая последовательность
ə0019	ədədi apertura	numerical aperture	числовая апертура
ə0020	ədədi operator	numerical operator	числовой оператор
ə0021	ədədi ox	number axis	числовая ось
ə0022	ədədi verilənlər	numerical data	числовые данные
ə0023	ədədin tərs qiyməti	inverse number	обратная величина числа
ə0024	ədədlər həndəsəsi	geometry of numbers	геометрия чисел
ə0025	ədədlər nəzəriyyəsi	theory of numbers	теория чисел
ə0026	ədədlərin elementar nəzəriyyəsi	elementary theory of numbers	элементарная теория чисел
ə0027	ədədlərin geometrik (həndəsi) nəzəriyyəsi	geometric theory of numbers	геометрическая теория чисел
ə0028	ədədlərin additiv nəzəriyyəsi	additive number theory	аддитивная теория чисел
ə0029	əhalinin sıxlığı	population	населённость

ə0030	əhali sıxlıqlarının inversiyası	population inversion	инверсия населённостей
ə0031	əhatəedici fəza	ambient space	окружающее пространство
ə0032	əhali sıxlığının qismən inversiyası	partial population inversion	частичная инверсия населённостей
ə0033	əhəmiyyətli dərəcədə məhdudlanmış	essentially bounded	существенно ограниченный
ə0034	əhəmiyyətli, zəruri	essential	существенный
ə0035	əhəmiyyətsiz xüsusiyyət	inessential singularity	несущественная особенность
ə0036	əhəng şüşəsi	lime glass	известковое стекло
ə0037	əhəng-natrium şüşəsi	soda lime glass	известково-натриевое стекло
ə0038	əks (dönən) dəyişmə	inverse change	обратное изменение
ə0039	əks kondensasiya	reverse condensation	обратная конденсация
ə0040	əks qəfəs	reciprocal lattice	обратная решётка
ə0041	əks rabitə	back coupling	обратная связь
ə0042	əks sürüşmə	reverse bias	обратное смещение
ə0043	əks axın, əks cərəyan	reverse flow	обратное течение, противоток
ə0044	əks cərəyan	inverse current	обратный ток
ə0045	əks dalğa	retrograding wave	обратная волна
ə0046	əks dalğa lampası	backward-wave tube	лампа обратной волны
ə0047	əks edən projektor	reflection projector	отражательный прожектор
ə0048	əks effekt	inverse effect	обратный эффект
ə0049	əks elektrik hərəkət qüvvəsi	counter-electromotive force	противоэлектродвижущая сила
ə0050	əks elektrik yükü	opposite charge	противоположный заряд
ə0051	əks əməliyyat	inverse operation	обратная операция
ə0052	əks etdirən	reflector	отражатель
ə0053	əks etdirən faza hologramı	reflection phase hologram	отражательная фазовая голограмма
ə0054	əks etdirən difraksiya qəfəsi	reflection grating	отражательная дифракционная решётка
ə0055	əks etdirən dumanlıq	reflection nebula	отражательная туманность
ə0056	əks etdirən ekran	reflecting barrier	отражающий экран
ə0057	əks etdirən elektrod	reflector	отражательный электрод
ə0058	əks etdirən elektron mikroskopu	reflection electron microscope	отражательный электронный микроскоп
ə0059	əks etdirən güzgü	reflecting mirror	отражающее зеркало
ə0060	əks etdirən hologram	reflection hologram	отражательная голограмма
ə0061	əks etdirən klistron	reflex klystron	отражательный клистрон
ə0062	əks etdirən nazik metal təbəqəsi	metallic reflecting film	металлическая отражающая плёнка
ə0063	əks etdirən prizma	reflecting prism	отражательная призма
ə0064	əks etdirən qəfəs	reflectarray	отражательная решетка
ə0065	əks etdirən qoniometr	reflection goniometer	отражательный гониометр
ə0066	əks etdirən səth	reflecting surface	отражающая поверхность
ə0067	əks etdirən spektrofotometriya	reflective spectrophotometry	отражательная спектрофотометрия
ə0068	əks etdirən təbəqə	reflecting film, reflecting layer	отражательная плёнка, отражающий слой
ə0069	əks etdirən teleskop, reflektor	effecting telescope	отражательный (зеркальный) телескоп, рефлектор
ə0070	əks etdirən yastı güzgü	plane reflecting mirror	плоское отражающее зеркало

ə0071	əks etdirmə (təsvir etmə) dərəcəsi	mapping degree	степень отображения
ə0072	əks etdirmə qabiliyyəti	reflecting power, reflectance	отражательная способность
ə0073	əks etmə fəzası	mapping space	пространство отображений
ə0074	əks etmə funksiyası	reflection function	функция отражения
ə0075	əks etmənin amplitud əmsalı	amplitude reflectivity	амплитудный коэффициент отражения
ə0076	əks faza	opposite phase	противоположная фаза
ə0077	əks fotoelektrik effekti	inverse photoelectric effect	обратный фотоэлектрический эффект
ə0078	əks gediş müddəti	flyback time	время обратного хода
ə0079	əks gedişin söndürülməsi	blanking	гашение обратного хода (луча), бланкирование
ə0080	əks inkias	inverse mapping	обратное отображение
ə0081	əks interpolyasiya	inverse interpolation	обратная интерполяция
ə0082	əks istiqamət	inverse direction , return direction	направление обратное, противоположное
ə0083	əks istiqamətdə hərəkət	backward motion, inverse motion, return motion	движение обратное
ə0084	əks istiqamətli cərəyan	reverse current, inverse current	обратный ток
ə0085	əks istiqamətli rabitə sarğacı	feedback coil	катушка обратной связи
ə0086	əks işarə	opposite sign	противоположный знак
ə0087	əks keçid	inverse transition	обратный переход
ə0088	əks kondensasiya	retrograde condensation	обратная конденсация
ə0089	əks likvasiya	inverse segregation	обратная ликвация
ə0090	əks matris	inverse matrix	обратная матрица
ə0091	əks modulyasiya	inverse modulation	обратная модуляция
ə0092	əks olunmuş dəstə	reflected beam	отражённый пучок
ə0093	əks olunmuş göy qurşagı	reflected rainbow	отражённая радуга
ə0094	əks olunmuş güc	reflected power	отражённая мощность
ə0095	əks olunmuş günəş radiasiyası	reflected solar radiation	отражённая солнечная радиация
ə0096	əks olunmuş işıq	reflected light	отражённый свет
ə0097	əks olunmuş rentgen şüaları	reflected X-rays	отражённые рентгеновские лучи
ə0098	əks olunmuş siqnal	reflected signal	отражённый сигнал
ə0099	əks olunmuş şüa	reflected ray	отражённый луч
ə0100	əks olunmuş xəyal (təsvir)	reflected image	отражённое изображение
ə0101	əks parıltılı təbəqə	antihalation layer	противоореольный слой
ə0102	əks qəfəs vektoru	reciprocal lattice vector	вектор обратной решетки
ə0103	əks reaksiya	reverse reaction	обратная реакция
ə0104	əks rabitə	feedback	обратная связь
ə0105	əks rabitə cərəyanı	feedback current	ток обратной связи
ə0106	əks rabitə dövrəsi	feedback circuit	цепь обратной связи
ə0107	əks rabitə dolağı	feedback winding	обмотка обратной связи
ə0108	əks rabitə əmsalı	feedback factor	коэффициент обратной связи
ə0109	əks rabitə ilə tənzimləmə	feedback control	регулирование с обратной связью
ə0110	əks rabitə kondensatoru	feedback capacitor	конденсатор обратной связи

ə0111	əks rabitə konturu	feedback loop	контур обратной связи
ə0112	əks rabitə müqaviməti	feedback resistance	сопротивление обратной связи
ə0113	əks rabitə siqnalı	feedback signal	сигнал обратной связи
ə0114	əks rabitəli generator	back-coupled oscillator, feedback oscillator	генератор с обратной связью
ə0115	əks rabitəli gücləndirici	feedback amplifier	усилитель с обратной связью
ə0116	əks rabitənin baza müqaviməti	feedback base resistance	базовое сопротивление обратной связи
ə0117	əks rabitənin gərginliyi	feedback voltage	напряжение обратной связи
ə0118	əks rabitənin tutumu	feedback capacitance	ёмкость обратной связи
ə0119	əks şəfəq	counterglow	противосияние
ə0120	əks spin	opposite spin	противоположный спин
ə0121	əks oxşəkilli bucaq	sweep-forward angle	угол обратной стреловидности
ə0122	əks tərəfdəki nöqtə	antipodal point	противоположная точка
ə0123	əks təsir	reaction, drag	противодействие
ə0124	əks təsir edən moment	counter torque	противодействующий момент
ə0125	əks toranlı qövs	antitwilight arch	противосумеречная дуга
ə0126	əks ağırlıq	balance weight	противовес
ə0127	əks ardıcıllıq komponenti	negative-phase-sequence component	составляющая обратной последовательности
ə0128	əks axın	countercurrent	противотечение
ə0129	əks olunmuş dalğa	reflected wave	отражённая волна
ə0130	əks olunmuş işıq	reflected light	отраженный свет
ə0131	əks olunmuş rəqs	reflected vibration	отраженное колебание
ə0132	əks olunmuş şüa	reflected ray	отраженный луч
ə0133	əks olunma (qayıtma) bucağı	angle of reflection	угол отражения
ə0134	əks olunma əmsalı	reflectance; reflection coefficient, reflection factor, coefficient of reflection	коэффициент отражения
ə0135	əks olunma əyrisi	reflection curve	кривая отражения
ə0136	əks olunma matrisi	reflection matrix	матрица отражения
ə0137	əks olunma spektri	reflection spectrum	спектр отражения
ə0138	əks olunma xarakteristikası	reflection characteristic	характеристика отражения
ə0139	əks olunmaya olan itgi	reflection loss	потери на отражение
ə0140	əks diffuziya	back diffusion	обратная диффузия
ə0141	əksetdirici honiometr	reflecting goniometer	отражательный гониометр
ə0142	əksetdirici səth	reflecting surface	отражающая поверхность
ə0143	əksinə fırlanma	reverse rotation	обратное вращение
ə0144	əksinə hərəkət	reverse motion	обратное движение
ə0145	əksinə təsir edən qüvvə	thrust, counteractive force	противодействующая сила
ə0146	əksolma	reflection	отражение
ə0147	əks-səda	echo	эхо
ə0148	əks-səda rezonatoru, əks-səda boksu	echo box	эхо-резонатор, эхо-бокс
ə0149	əks-səda siqnalı	echo	эхосигнал
ə0150	əks-sədanın qarşısınıı kəsən	echo suppressor	эхозаградитель
ə0151	əks olunmuş impuls	echo pulse	импульс отраженный
ə0152	əks olunma qanunu	law of reflection	закон отражения

ə0153	əks olunmanın pleoxroizmi	reflection pleochroism	плеохроизм отражения, отражательный плехроизм, двуотражение
ə0154	əl barometri	portable barometer	барометр переносной
ə0155	əl taxometri	hand tachometer	ручной тахометр
ə0156	əlaqə reaksiyası, ön müqavimət	reaction, drag	реакция связи, лобовое сопротивление
ə0157	əlaqə transformatoru	associative law	трансформатор связи
ə0158	əlaqə yaradan homomorfizm	connecting homomorphism	связывающий гомоморфизм
ə0159	əlavə	addition agent	добавка, присадка
ə0160	əlavə (tamamlayıcı) hadisə	complementary event	дополнительное событие
ə0161	əlavə (tamamlayıcı) ton	supplementary tone	добавочный тон (дополнительный)
ə0162	əlavə cərəyan	alternate current	дополнительный ток
ə0163	əlavə diaqonal	auxiliary diagonal	побочная диагональ
ə0164	əlavə edilən vektor	applied vector	приложенный вектор
ə0165	əlavə elektrik yükü	boosting charge	дополнительный заряд
ə0166	əlavə etmək, tamamlamaq	complementarity	дополнительность
ə0167	əlavə hissə	additional part	добавочная часть
ə0168	əlavə közərmə katodu, qızmış katod	indirectly-heated cathode	катод косвенного накала, подогревной катод
ə0169	əlavə kütlə	additional mass	дополнительная масса
ə0170	əlavə linzalar	additional lens	добавочные линзы
ə0171	əlavə məhsul	by-product	побочный продукт
ə0172	əlavə müqavimət	instrument multiplier, range multiplier	добавочное сопротивление
ə0173	əlavə qütb	additional pole	дополнительный полюс
ə0174	əlavə rənglər	complementary colors	дополнительные цвета
ə0175	əlavə reaksiya	side reaction	побочная реакция
ə0176	əlavə seriya	subordinates series	побочная серия
ə0177	əlavə şərt	additional condition	дополнительное условие
ə0178	əlavə təcil	additional acceleration	ускорение дополнительное
ə0179	əlavə (səhv, yan) təsvir	ghost image	паразитное (побочное) изображение
